# Anar haqqında kim nə demiş...

*Altmışıncıları Biləcəridən o yana heç kəs tanımır (Qəzetlərdən)*

## Biləcəridən bu yana

### YAZIÇILAR

Anar artıq doğma yurdundan, onun hüdudlarından çox kənarlarda da geniş oxucu kütləsinin tanıdığı, əsərlərini diqqətlə, maraqla izlədiyi, mütaliə etdiyi yazıçılardandır. Onun yaradıcılıq diapazonu genişdir.



*Mirzə İbrahimovla*

Bizcə Anarı ayıran keyfiyyət onun üçün tamamilə yeni olan sahələrdə də böyük əmək sərf etməsi, mümkün qədər mövzunun dərinlərinə enmək səyidir. Bu da yaratdıqlarının təbiiliyində, inandırıcılığında, bədii dilinin və obrazlarının cazibədarlığında özünü göstərir.

Anarın "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" kimi romanları bu yolda atılan addımlardır. "Şəhərin yay günləri", "Təhminə və Zaur" dramlarını da mən həqiqi sənət əsərləri hesab edirəm.

Fikrimcə, "Təhminə və Zaur" son illərin layiqli ədəbi hadisələrindəndir. "Təhminə və Zaur" psixoloji dramdır və bu janrın realist üslubu da az-az təsadüf olunan nadir bir keyfiyyətə malikdir.

**Mirzə İBRAHİMOV**

Ən yeni ədəbi nəslimizin nümayəndəsi Anar öz hekayələrini sadə, ifadəli bir dildə, yığcam və mənalı yazmağa çalışır.

**Mehdi HÜSEYN**

Mən Anarın "Molla Nəsrəddin-66" başlığı adı altında toplanmış bir-birilə bağlı olan yumoristik satirik hekayələrini maraqla oxudum.

Yumor onun ən çox "Zəncir" hekayəsində hiss olunur. Qəribə bir formada xalq nağıllarına bənzər bir şəkildə yazılmış bu əsər oxucunu meşşanların, xırda beyinli adamların dünyasına aparır. Bu dünyada hər şey əvəz-əvəzdir.

Yumoristin, satirikin yolu çətin yoldur. Təhlükəlidir. Ancaq işi nəcib və xeyirxahdır. Bu çətin yolu təzəcə addımlamağa başlayan Anara müvəffəqiyyətlər arzulayıram.

**Sabit RƏHMAN**

O illərdə Anarın "Dörd çahar" hekayəsi çıxmışdı. Mir Cəlal müəllim oxuyub onu deyirdi ki, bu gəncin gözəl yazıçı müşahidələri var.

**Nəriman HƏSƏNZADƏ**
***"Ədəbiyyat qəzeti", 13 sentyabr 1996***

**Ə.Məmmədxanlının "Keçən ilin son gecəsi" hekayəsi haqqında rəyi:**

"Yaxşıdır, çox yaxşıdır! Gözəl hekayədir, dili də yaxşıdır. Və bu təsadüfi deyil! Dolğun məzmun formanı özünə tabe eləyəndə - yeni forma boş qabıq olmayanda həqiqi sənət yaranır. Çətin yol budur, nə tapacaqsansa bu yolda tapacaqsan. "Leyli və Məcnun" hekayəsinin yolu isə səni bayağılıq bataqlığına apara bilər. Saxta parıltıdan sakın! İstedadını heçə-puça sərf eləmə! Bu hekayən münasibətiylə uğurlar olsun deyirəm, - çapa verə bilərsən.

**Ənvər MƏMMƏDXANLI**



*Ənvər Məmmədxanlıyla*

Ə.Məmmədxanlının "Keçən ilin son gecəsi" hekayəsinin makina yazısının sonunda yazdığı bu rəyindən sonra hekayəni "Azərbaycan" jurnalına təqdim etdim. Bu "Azərbaycan" jurnalının 1960-cı il dekabr sayında çıxan ilk mətbu hekayəm oldu.

***Anarın dəqiqləşdirməsi***

Anarın bir yazıçı kimi yaxşı cəhətlərindən biri də budur ki, qələmə almaq istədiyi mövzunu mükəmməl araşdırır, tədqiqatçı kimi araşdırmalarla məşğul olur və onu bütöv qavradıqdan sonra yazıya başlayır. Biz bunu Mirzə Cəlildən əsər yazmazdan əvvəl "Anlamaq dərdi" və "Dədə Qorqud dünyası" kimi elmi, essevari, publisist əsərlərin timsalında görürük.



*İsmayıl Şıxlı və Yaşar Qarayevlə*

Mənə elə gəlir ki, "Dədə Qorqud dünyası" indiyə qədər "Dədə Qorqud" haqqında yazılan bütün elmi araşdırmalara istinad edilərək, onların əsarət zəncirindən uzaqlaşaraq, müstəqil mühakimələr əsasında yaradılmış emosional, emosional olduğu qədər də elmi əsərdir. Bu əsərdə iki cəhət xüsusilə diqqəti cəlb edir. Birincisi, Anar "Dədə Qorqud" oğuzlarının fərqli olduğunu, öz adət, psixologiya, əxlaq, ailə münasibətləri, məhəbbət və sədaqət anlayışları ilə azərbaycanlı olduqlarını və bunların bizim torpaqda ta qədimdən yaşadığını, bir sözlə, bizim özümüz və kökümüz olduğunu sübut edir. "Dədə Qorqud" bizimdir, onun oğuzları isə əcdadımızdır.

**İsmayıl ŞIXLI**

Üzeyir Hacıbəyovun zəngin yaradıcılığı təkcə musiqi mədəniyyətimizin deyil, bütünlüklə mədəniyyətimizin və ümumən mənəvi tariximizin bir mərhələsidir. Onun parlaq obrazını sənətin hər hansı bir vasitəsi ilə canlandırmaq, geniş, çoxcəhətli həyat və fəaliyyətini tədqiq və təsvir etmək olduqca məsuliyyətli bir işdir. Böyük bacarıq tələb edir.



*Bayram Bayramov, İsmayıl Şıxlı, Sergey Baruzdin, Elçinlə*

Cəsarətlə demək olar ki, Anarın "Üzeyir Hacıbəyov - "Uzun ömrün akkordları" filmi bu tələbə cavab verir. O filmin ssenari müəllifi və rejissoru kimi çətin bir işin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, buna kino, teatr, radio, televiziya, sənət arxivlərində, fonetikalarda, kitablar arasında əzablı, diqqətli, dərin araşdırmalar, aşkarlaşdırmalar aparmaq yolu ilə nail olmuşdur.

**Bayram BAYRAMOV**

Türk dünyasının min beş yüz illik poeziyasına baş vuran bu kitab "Kitabi-Dədə Qorqud", "Oğuznamələr", "Divani-lüğət-üt-türk", "Əxtəri-kəbir" kimi kitablar oğuz tarixini, poeziyasını, dilini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Min beş yüz ilin oğuz şeirindən nümunələri özündə toplayan kitab bir institut əməkdaşlarının birlikdə gördüyü və meydana qoyduğu bir tədqiqat külliyatı kimi bir, beş, on, on beş adamın işi deyil.

Anar bir institutun işini görmüşdür. 1300 illiyini qeyd etdiyimiz "Kitabi-Dədə Qorqud"dan daha öncələrə əl uzatmışdır. 1500 illik türk dünyasının poeziyasının ağırlığını Anar çiyninə götürmüşdür.

**Əzizə CƏFƏRZADƏ**

Mədinə xanımla mən həmişə Rəsul Rza ailəsiylə mehriban münasibətdə olmuşuq. Bu ailənin layiqli övladı Anarla da bizi həmişə qarşılıqlı hörmət və rəğbət bağlayıb. Anar mənim yubileyimlə bağlı "O taylı-bu taylı şeirimizin ağsaqqalı" adlı məqalə yazmışdı. Dəfələrlə demişəm ki, Mirzə İbrahimovun mənim barəmdə yazdığı məqaləylə bir sırada Anarın məqaləsi də haqqımda yazılan ən dəyərli yazıdır. Mən Anarın yazısını kitablarımdan birinə ön söz kimi daxil etmişəm.

**Balaş AZƏROĞLU**

# Anar haqqında



*Balaş Azəroğluyla*

Onun yaradıcılığının gözəl xüsusiyyətlərindən biri də sovet dönəmində yazdığı "Yaxşı padşahın nağılı", "Anlamaq dərdi", "Adamın adamı" və bir sıra teletamaşaları quruluşa etirazın böyük ustalıqla ifadə edilməsidir.

Mirzə Cəlil haqqında onlarla elmi tədqiqat işi və məqalə oxumuşam. Amma Anarın "Anlamaq dərdi" essesi Mirzə Cəlil dühasının elə kəşflərinə toxunur və bu yaradıcılıq elə bir səviyyədə təhlil olunur ki, bu təhlil bənzərsiz olduğuna görə tamamilə yenidir. Bu esse məqalə mənim gözümdə böyük sənətkarın tamamilə yeni tərəflərini açdı.



*Bəxtiyar Vahabzadəylə*

Altmışıncı illərdə ədəbiyyatımıza gələn yeni nəslin içərisində Anarın ayrıca dəsti-xətti, ayrıca yeri var. Mən deməli olar ki, onun bütün əsərlərini oxumuşam. Anarı bir yazıçı kimi mənə sevdirən əsas cəhət onun əsərlərindəki psixologizmdir.

Anar yaradıcılığının ikinci maraqlı və orijinal cəhəti onda lirika ilə yumorun baş-başa gəlməsidir. Onun sırf yumorik-satirik əsərləri ilə yanaşı, sırf ciddi planda yazılmış lirik-romantik əsərləri də var. Lakin onun elə əsərləri də var ki, orda yumorla lirika çarpazlaşır. Mənim çox sevdiyim və ürək ağrısı ilə oxuduğum "Dantenin yubileyi" belə əsərlərdəndir. Bu əsər başdan-başa yumor, atmaca və zarafat əsasında yazılmışdır. Lakin əsərin finalı böyük ağrı və acıma hissi ilə bitir.

Əsərdə nə ölüm var, nə zülüm. Amma ürək parçalayan facio var. Bu, oxucunu arxasınca aparıb istədiyi vəziyyətə sala bilən qələmin qüdrətidir.

Anarın bu yaxınlarda oxuduğum "Otel otağı" əsəri də başqa-başqa aspektlərdə oxucuda təxminən eyni acıma hissini oyadır.

"Keçən ilin son gecəsi" teletamaşasını ana haqqında, "Gün keçdi" filmini isə baş tutmayan sevgi haqqında nəsrlə yazılmış poema adlandırardım.

**Bəxtiyar VAHABZADƏ**

...Anar ömrünün, enerjisinin, ilhamının və zəkasının baharını yaşayır. O, sinəsi sözlə dolu, istedadlı yazıçımız, ayıq və açıqgözlü ziyalımızdır. Mən bu qənaətimi - Anarın "Azərbaycan" və "Novıy mir" jurnallarında böyük Cəlil Məmmədquluzadə haqqında çap etdirdiyi "Anlamaq dərdi" adlı portret məqaləsini oxuyandan sonra bir daha təsdiq etdim. "Sizi deyib gəlmişəm" pyesi isə sübut etdi ki, fikrimdə yanılmamışam.

**QABİL**

*"Azərbaycan gəncləri", 19 iyun 1982*



*Qabillə*

İyirminci əsrdəki siyasi vəziyyətindən, özgələşməsindən qəlbi ağrıyan Rəsul Rzadan sonra Rəsul Rza evinin, ailəsinin təfəkkür işığında böyümüş Anarın da yaradıcılığının yetkin dövründə eyni yolla addımlaması həyatın özündən törəyən bir hadisədir. "Ağ qoç, qara qoç" şedevrini yaradan Anarın bədii yaradıcılığının başladığı dövrü xatırlayıram, "Molla Nəsrəddin 66" adıyla çap etdirdiyi felyetonlar kitabından təxmin etmək olardı ki, Anar kimdir və kim olacaq. Ömrü boyu Cəlil Məmmədquluzadəyə vurğunluğunu sədaqətlə saxlayan ədibin kino aləmində də Mirzə Cəlillə yanaşı, daha iki dahimizə Üzeyir bəyə, Hüseyn Cavidə müraciəti onun ədəbiyyatda böyük amallara xidmət etdiyini sübut edir. Böyük amal böyük şəxsiyyətlərə məxsus xüsusiyyətdir.



*İsa Muğannayla*

Hekayələrinin, povestlərinin, romanlarının cahanşümul ideyaları sırasında ən müdrik əsərlərindən birini doğma Azərbaycana həsr etməsi, geniş əhatəli ictimai fəaliyyəti, qurultaylarda, Milli Məclisdə, ictimai-siyasi tədbirlərdə nitqləri, məqalələri də Anar şəxsiyyətinin böyüklüyünü göstərir.

**İsa MUĞANNA**

Anarın lap gənc yaşlarından dərk etdim ki, o qeyri-adi şəxsiyyətdir. Bu şəxsiyyəti eşidəcəklər, özü də elə eşidəcəklər ki, bu Azərbaycan ədəbiyyatının çox böyük hadisəsi olacaq. Yadımdadır "Azərbaycan" jurnalında Anarın elə ilk hekayələri məni sarsıtmışdı. O, yeni süjetləriylə, yeni janrla, yeni üslub ixtiralarıyla sarsıdırdı.

Bir neçə kəlmə də onun son povesti "Ağ qoç, qara qoç" haqqında demək istəyirəm. Bu - sözün yaxşı mənasında - dəhşətli əsərdir və jurnal bu əsəri çap etməklə böyük cəsarət göstərmişdir. Anar əsərdə utopiya və antiutopiyanın sintezini yaratmışdır.

**Çingiz HÜSEYNOV**

Bu əsər dərd, kədər, dözüm nəğməsidir. Yüzcə gün ərzində atasını və anasını itirən, bu itkinin böyüklüyünü yalnız ağlı ilə yox, bütün ürəyi ilə dərk edən, duyan, dərdə dözməyən, dözən övladın bədii etirafıdır.

Müəllifin "Qorxuram qələmim qanaya" sözləri sanki romanın yazılma tərzini, onun necə doğulduğunu müəyyənləşdirir. Əsərin dili çağdaş ədəbi dilimizin inkişafı və zənginləşməsi baxımından da xeyli maraqlıdır. Ədəbiyyatımızın ümumi inkişafında, onun formaca, məzmunca zənginləşməsində misilsiz xidmətləri olan Rəsul Rza, Nigar Rəfibəyli haqqında yazılmış bu roman yüksək bədii keyfiyyətlərilə, yazı tərzi, üslubu ilə də yenidir, maraqlıdır. Mənim yazdıqlarım isə əsərin hər iki qəhrəmanına və onun müəllifinə böyük hörməti olan bir şairin ürək sözləridir.

**Xəlil Rza ULUTÜRK**

### *Anar deyiləndə*

Anar deyiləndə gözümün qabağına bir Ana yol gəlir. Bu Yol "Keçən ilin son gecəsi"ndən baş alıb, "Otel otağı"na gəlib çıxır. Bu yolda böyük-kiçik yüzlərcə yol və cığır kəsişir. Bu yolu ayaq üstə təsəvvür edə bilsəydik, qollu-budaqlı, çoxşaxəli nəhəng bir ağaca bənzəyərdi. Bir ağac bir orman!

Bu yolla "Dədə Qorqud" "Qobustan"a gəlir.

Dünənimiz, bu günümüz, gələcəyimiz bu yolda görüşür.

Anarın dili o qədər aydındır ki, onu ancaq nadan başa düşməz.

Niyyətin haradırsa mənzilin də oradır. Bu yollar səni istədiyin mənzilə aparar. Gəzərsən, görərsən, zəngin olub qayıdarsan, yenə çıxarsan Ana yola. Bu yolu yaradan Anar da həmişə yoldadır. Ana yol elə Anarın özüdür.

**Fikrət SADIQ**

Anar həm istedadlı yazıçıdır, həm də çox ziyalı, ciddi insandır. Bununla bərabər onun insanlarla işləmək qabiliyyəti yüksəkdir. Məsələn, düşünürəm ki, ola bilər ki, mən hansısa məqamda özümdən çıxa, dözə bilmərəm, qarşımdakına ağır söz deyərəm. Amma Anardan arxayınam, onu 60 ildir ki, tanıyıram. Bir şey olanda gedib onunla məsləhətləşirəm - baxmayaraq ki, ondan 3 yaş böyüyəm, mən də onun qədər təhsil almışam. Anar bu işə layiqdir. Üstəlik, beynəlxalq miqyasda, keçmiş SSRİ məkanında olmuş dövlətlərdə tanınır. Burdan bir məktub gedəndə izah etməyə lüzum qalmır ki, kimdir, nəçidir. Biri gedəndə, deyəndə ki, "məni Anar dəvət edib", sorğusuz qəbul edirlər. İndi Anarın qədrini bilsinlər ki, işləyir. Kim ki, sədr olmaq istəyirlər, bir nəfər seçilən kimi, düşəcəklər onun üstünə.

**Fikrət QOCA**



*Fikrət Qocayla*

# kim nə demiş...



*Yusif Səmədoğluyla*

Anarın, Anar yaradıcılığının həyatiliyi, realizmi, əgər təbir caizsə, bugünlüyü bizə əsl ədəbiyyat haqqında danışmağa tam haqq verir. Anar bir yazıçı, esseist və kino xadimi kimi öz yaradıcılığında müasir sənətin bir çox xüsusiyyətlərini birləşdirə bilmişdir, bu sintez eklektik xarakterli deyil, bütövdür, məqsədə uyğundur... Məhz buna görə də bu gün biz ədəbiyyatdan danışanda, müasir Azərbaycan nəsrinin son illərdə keyfiyyətcə yeni bir mərhələyə qalxdığını iqrar edəndə - yeni fikirli, yeni məzmunlu, yüksək realist mövqeli, geniş miqyaslı sənətdən danışmalı oluruq. Bu sənətin ön sıralarında Anar öz səsi və öz nəfəsi ilə uğurlu addımlarla gedir.

**Yusif SƏMƏDOĞLU**

Mənim şairlik xronologiyamı Anar məndən yaxşı bilir. Məsələn, mənim yadımdan çıxmış, tamamilə unutduğum dörd poemamı Anar mənə verib. Baxan kimi yadıma düşdü. Anarın bu xüsusiyyətini də deyim, qoy bizim cavanlar öyrənsin ki, necə dostluq etmək lazımdır. Dostluq təkcə sözlə-söhbətlə, yemək-içməklə yox, bax elə bundadı. Hər dost bunu eləyə bilməz. Özü də Anar kimi ictimai nöqteyi-nəzərdən həmişə məşğul olan adam oturub dostun kitabını tərtib eləsin: "İlahi, mən burdayam" kitabının tərtibçisi də Anardı, amma adını bir tərtibçi kimi



*Vaqif Səmədoğluyla*

yazmayıb. Ön sözü də o yazıb. Yığan da Anardı, səhifələyən də Anardı.

İndiyədək nəsə yazdığım-yaratdığım zaman əlim birdənbirə hansısa misranı pozur, - niyə, nə üçün? Çünki ürəyimə damır ki, yazdığımı Anara oxuyanda, o, filan yer pisdir deyəcək. Fəhmən, bilaixtiyar onunla özümü yoxlayıram, o mənim üçün bir növ kamertondur.

Amansızcasına öz şəxsi vaxtına qəsd edərək, öz yaradıcılığı hesabına Anar Azərbaycan söz sənətinə çox-çox xidmətlər göstərmişdir. İndi isə öz səhhətinin hesabına...

Moskvada onun ətrafında azadsevər, dissidentlik üstə köklənən bir mühit yaranmışdı. O, yataqxanada yaşamırdı, otaq tuturdu və orada mən bir çox münəvvər adamlarla tanış olmuşdum. Onun qonaqları Yunna Morits, Alla Axundova, İvan Draç, Yuri Klepikov, İlya Averbax, Manana Andronnikova kimi şəxsiyyətlər olurdu. Ciddi, mənalı söhbətlər səhərədək uzanırdı.

**Vaqif SƏMƏDOĞLU**
*Xalq şairi*

"Sizsiz" kitabı nəhəng şəxsi mənəvi sarsıntıdan yaxa qurtarmaq, bu dərdi ilahi müstəviyə keçirmək cəhdidir... Yox, oradakı bədbinlik deyil, müdriklikdir. Yəqin o, bir çoxlarından əvvəl, məndən əvvəl ölüm haqqında düşünməyə başlamışdır. Bu da müdriklik əlamətidir.

Onun parlament fəaliyyəti çox səmərəli olmuşdur.

İctimai sahədə Anarın ən mühüm son uğurlarından biri klassikanın yenidən nəşr olunmasıdır. Belə bir layihənin yükünü qaldırmağa az adamın gücü çatardı.



*Maqsud İbrahimbəyovla*

Mədəniyyət üzrə Komissiyanın sədri olaraq, Anar fəal işə qatılmış, daima çox gərəkli və faydalı təkliflər irəli sürmüş, nəticəyə nail olmaq üçün səylərini əsirgəməmişdir. O öz borcunu yerinə yetirirdi.

İstərdim ki, bilməyənlər nəhayət anlasınlar: deputatlıq yazıçıya yox, cəmiyyətə yazıçının deputatlığı lazımdır.

**Maqsud İBRAHİMBƏYOV**
*Xalq yazıçısı*

Anar yaradıcılığının həqiqətən renessans genişliyinin istedad və maraq dairəsindən başqa, mənəvi qaynaqları da var: "özgə" əməllərilə, talelərilə, səyləri ilə bu qədər ürəkdən məşğul olmaq yalnız ölümü unutmayan və həyatı sevən adamın işidir.



*Rüstəm İbrahimbəyovla*

Anarın şəxsiyyət, sənətkar, ictimai xadim kimi Azərbaycan mədəniyyətində unikallığı aydın həqiqətdir. İstedadın, geniş erudisiyanın, xalqına, ölkəsinə gərəkli olmaq yolunda xidmətin və zamanın son dərəcə dəqiq duymağın belə üzvü vəhdətini mən başqa heç kəsdə görməmişəm.

**Rüstəm İBRAHİMBƏYOV**
*Xalq yazıçısı*

Qonşu evdə (həmin o Vaqif küçəsindəki təzə binada) gedib Anara baş çəkdim, dedi ki, Cəfər Cəfərov (o vaxt Cəfər müəllimi lap təzəlikcə Mərkəzi Komitənin ideoloji katibi qoymuşdular) səninlə maraqlanır. Rəsul (Anar öz atasına eləcə "Rəsul" deyirdi) iş barəsində (yəni, mənim haradasa qulluq işinə düzəlməyim barədə) səninlə söhbət eləmək istəyir. Havaxt deyirsən, bir yerdə gedək yanına. Bir sözlə, məlum oldu ki, Anar da elə həmişəki Anardır: mənim yolumda özünü fəda eləməyə yenə can-başla hazırdır...



*Əkrəm Əylisliylə*

...Bir də, görünür, əvvəlcədən ürəyimə dammışdı ki, mən o nəşriyyatda çox işləyə bilməyəcəm. Buna görə də orda işləyəcəyim müddətdə heç olmasa ən istedadlı gənc yazıçılardan bir neçəsinin kitabının nəşr olunmasına yaman tələsirdim. Bu işdə çox vaxt Rəsul Rza dadıma çatırdı, çünki nəşriyyatın direktoru mənim fikrimlə hesablaşmağa hərdən məcbur olsa da, hər halda Rəsul Rzanın sözünə qarşı çıxmağa heç vaxt cəsarət eləmirdi.

**Əkrəm ƏYLİSLİ**

Anar milli ədəbiyyatın, milli mədəniyyətin maraqları ilə yaşayan və həmin maraqları ən yüksək tribunalardan müdafiə etməyə qadir bir intellektual, həmin milli ədəbiyyata, mədəniyyətə nəinki səriştəli qiymət verməyi bacaran, eyni zamanda həmin mənəvi dəyərlərlə fəxr edən görkəmli ədəbiyyat, mədəniyyət xadimidir.

Anar, necə deyərlər, qanıyla, canıyla öz xalqına bağlı olan, genetik yaddaşa, zövqə və təəssübkeşliyə malik qələm sahibi bir vətəndaşdır. O, azərbaycanlı xarakterinin, indi dəbdə olan sözlə desək, mentalitetinin koloritini duyan, hiss edən, mənim uzun illər boyu tanıdığım az adamlardan biridir.



*Elçinlə*

...Yadıma gəlir, 60-cı illərin əvvəllərində Anarın elə ilk hekayə və povestləri necə səs saldı, öz məxsusiliyi ilə necə seçildi. O zamanlar mən dəfələrlə bunun şahidi olmuşam ki, gənclər Anarın o ilk yazılarını hansı bir həvəslə oxuyurdu və o hekayələr, povestlər gənclikdə ədəbiyyatla bağlı necə bir ruh yüksəkliyi, bir coşqunluq yaradırdı.

Anarın hekayələri, povestləri Azərbaycan nəsrinin inkişafında, yeni-yeni bədii-estetik çalarlar əldə etməsində rol oynadığı kimi, dediyim o ruh yüksəkliyi, o coşqunluq da bizim oxucuların bədii zövqünün formalaşmasında rol oynadı.

**ELÇİN**

Dəqiq yadımda deyil, çapdan yenicə çıxmış hansı kitabımdasa, Anara bağışlayanda üstünə yazmışdım: "Bu boyda uzaq ola-ola, bu qədər yaxın olduğum Anara..."

İndi bu haqda fikirləşirəm və yazdığımın mənasını daha yaxşı anlayıram. Sözsüz, uzaq olmağının səbəbi aydındır; mən kənddə böyüdüm, Anar şəhərdə... Yaxın olmağımın kökü daha dərinlərdədir məncə. Hər halda bu hiss bir başa milli təəssübkeşlikdən gəlir. Yeni, hər ikimizin mənsub olduğumuz milli duyğularla bağlıdır.

Anar haqqında həmişə yazmaq istəmişəm. İndi əlyazmalarıma baxıram, çoxlu qeydlərim var.

İndi oturub fikirləşirəm və görürəm ki, Anar haqqında ümumiyyətlə yazılmayıb. Amma Anar hamımız haqda yazıb. Böyük ədəbiyyatın, sağlam sözün ən ağır anlarında köməyə gəlib. Əsl sözün müdafiəsinə qalxıb, sonacan da mübarizə aparıb.



*Fikrət Qoca və Mövlud Süleymanlıyla*

Anar həmişə haqqın tərəfində olub. Həmişə haqq sözü, ədəbiyyatın Böyük, sağlam sözünü qoruyub. Bu duyğu da çox qədimlərdən, onun tərbiyəsindən gələn bir xəttə bağlıdır ki, bunun çox şərəfli, ləyaqətli davamçısı rəhmətlik Rəsul Rza idi, Nigar Rəfibəyli idi. Sağlam sözə toxunanlara, ədəbi hadisələrə daş atanlara yerindəcə cavab verirdilər... Bütün bunlar, 60-cı illərdən üzü bəri mənim yaşıdlarımın, yəni biz ədəbi nəslin də gözü qarşısında olan tarixdir.

Və Anarın həmişə ictimai-siyasi, ədəbi-bədii hadisələrin dəqiq mərkəzində olmağı heç də təsadüfi deyil. Anar olmayanda belə, yeri görünən nadir ziyalılarımızdandır.

**Mövlud SÜLEYMANLI**
***Mart, 1998-ci il***

Anarın çox bilinməyən bir yönündən də xüsusi bəhs etmək lazımdır. O, şeiri az, amma kəsərli yazır. Onun şeirlərini oxuyanda ədəbiyyatın bir sahəsində istedadı olan hər insan, istəsə, hər sahəsində də uğur qazana biləcəyinin həqiqət olduğunu dərk edirsən.

Anarın uzaqgörənliyi müstəqillik illərində də ortaya çıxmışdır. Azərbaycan Yazıçılar Birliyi bu gün də yaşayır və fəaliyyətini hələ də uğurla davam edirsə, bu Anarın idarəçilik bacarığı ilə mümkün olmuşdur.

**Məmməd İSMAYIL**

Mənə elə gəlir ki, Anar ədəbiyyata epizodik, ikinci-üçüncü dərəcəli rollar üçün gəlməyib. Elə bu xüsusiyyət ona həm bədii, həm də elmi-publisist yaradıcılığında mədəniyyət tariximizin ən qaynar nöqtələrinə əl uzatmaq, ən müqəddəs səhifələrini çevirmək haqqı kimi bir mənəvi imtiyaz verib. Anar ilk hekayələrini çap etdirəndən bəri həmişə diqqət mərkəzindədir. Ancaq onun yaradıcılığına oxucu marağı ilə "tənqidçi" marağı çox vaxt bir-birinin əksinə olub. Oxucuya sevinc gətirən bir çox yaradıcılıq axtarışları və uğurları, tənqidçilər üçün yeni hücum hədəfinə dönür... Buna görə də öz ədəbi taleyini, bugünki böyük ictimai etimadı, ümumxalq məhəbbətini qazanmaqda o, çətin, dramatik yollardan keçib... Anara etibar etmək olar, yazısında da, ictimai mövqeyində də, danışığında da, sevgisi və nifrətində də... Hansı yerə düşür-düşsün, mədəniyyətimizi ləyaqətlə təmsil edə bilər. Heç bir çətin məqamda öz şəxsi mənafeyini, tərif, adsan, mükafat həvəsini ümumi mənafeyindən üstün tutub ədəbi vicdanına qarşı getməz... Anarın vaxta, vaxtın Anara sədaqəti məni həmişə təəccübləndirir. Anarın vaxta sədaqəti budur ki, o, həmişə hər vaxtın, hər məqamın öz sözünü, doğma, gözlənilən, gərəkli sözünü deyir. Vaxtın ona sədaqəti də budur ki, bizim üçün 24 saat olan gün sanki onun üçün genişlənir. Yoxsa eyni zamanda həm nasir, həm kino-dramaturq, həm publisist, həm "Qobustan" kimi bizim mətbuat tariximizdə xüsusi mərhələ təşkil edən jurnalın redaktoru, həm kinorejissor kimi çoxcəhətli fəaliyyətinə necə vaxt çatdırmaq olardı? Əgər zamanın belə yazıçıya sədaqəti olmasaydı, o, bütün ədəbi-ictimai fəaliyyəti ilə yanaşı, Azərbaycanı qarış-qarış gəzib yurdumuzun Naxçıvanı, Qarabağı, Gəncəsi, Şəkisi, Lənkəranı, Qobustanı, İçərişəhəri haqqında bir-birindən gözəl bədii publisistik nümunələr yarada bilməzdi. Bu kitab həm coğrafi, həm də mənəvi anlamda Azərbaycanın xəritəsidir. Burada vətənlə şəxsiyyət, yurdla yurddaş üz-üzə, ürək ürəyədir.

**Sabir RÜSTƏMXANLI**



*Sabir Rüstəmxanlıyla*

Mənim əziz dostum, gözəl Azərbaycan yazıçısı Anarın haçansa özünə yazdığı zarafatyana bir şeirində belə misralar var:

*"Şairlik bir azardır,*
*Hərdən-birdən tutandır".*

Anar təkcə özünə yox, içi mən qarışıq bir çox dostlara belə zarafatyana şeirlər, parodiyalar yazıb. Və ümumiyyətlə, onun sayca o qədər də çox olmayan şeirlərindəki zarafat yükü, yumor və ironiya bizim bir çox məşhur şairlərimizin cild-cild kitablarından daha artıqdır.



*Ramiz Rövşənlə*

Amma şairliyi, özü demişkən hərdən-birdən tutan Anarın şeirlərindəki yumor və ironiyanın əsl kökü heç şübhəsiz ki, onun parlaq və zəngin nəsr yaradıcılığındadır.

Anar, təbii ki, şəhər yazıçısıdır. Və mən inanıram ki, nəsil-nəsil oxucular üçün bizim yaşadığımız bu Bakı şəhərindən savayı, həm də Anarın yaratdığı, küçələrində onun qəhrəmanlarının gəzib dolaşdığı, evlərində onun qəhrəmanlarının küsüb-barışdığı, sevdiyi, tənhalıqdan əzab çəkdiyi bir şəhər də var. Və çoxları üçün gündən-günə dəyişən və böyüyüb-abadlaşan, amma böyüdükcə yadlaşan bu şəhərdən Anarın əsərindəki - roman, povest, hekayə və filmlərindəki o şəhər doğmadır...

**Ramiz RÖVŞƏN**

Anar!

Bu söz həmişə yeniliyə, yeni söz yaradıcılığına, qeyri-adi obrazlara çox həssas olan böyük şairimiz Rəsul Rzanın dilində görəsən nə vaxt, hansı məqamda, ovqatının hansı çağında səslənib? Bəlkə ilk övladının yolunu səbrsizliklə gözlədiyi vaxtlarda, bəlkə elə dünyaya gəldiyi gün?

Anar dünyaya sanki böyük bir missiya üçün gəlib. Ədəbi aləmdə atdığı ilk addımlarındaca bunun müəyyən əlamətləri duyulurdu. İlk əsərləri onu həmişə narahat, həmişə arayıb-axtaran, maraq dairəsi geniş cavan bir nasir kimi səciyyələndirirdi. Ətrafda baş verənlərə həssaslığı, çoxlarını düşündürən məsələlərə fərqli münasibəti, birləşdirici yönləri qabarıq nəzərə çarpırdı, yaşıdları arasında canyananlığı ilə seçilirdi. Bir cavan yazıçı kimi əslində özünün də o vaxtlar köməyə, dəstəyə ehtiyacı olsa da, istedadına güvəndiyi daha gənc ədəbi qüvvələrə əlindən gələni edir, üzə çıxmalarına yardımını əsirgəmirdi. O zamanlar "uğurlu yol"ları ilə xeyli gəncə xeyir-dua verən Rəsul Rza ilə onların arasında əsas əlaqələndirici Anar idi.

**Ələkbər SALAHZADƏ**

Bəzən Rəsul Rzadan acıq çıxa bilməyənlər "Qobustan" toplusunu hədəf seçirdilər və ağılasığmaz şeylər yazırdılar və özü də elə adamlar yazırdı ki, özlərinin Azərbaycan mətbuatında kim olduqları belə məlum deyildi... Belə bir qənaətim var ki, bu jurnal sanki Anar müəllim üçün nəzərdə tutulmuşdu, çünki o illərdə mənə elə gəlir ki, Anar müəllimdən başqa heç kəs bu jurnalı idarə edə bilməzdi, yəni belə savadlı, məntiqli, Azərbaycan, sovet, dünya sənətini beləcə əhatəli bilən ikinci başqa bir adam vardımı, mən deyə bilmərəm. Anar müəllimin belə bir erudisiyaya malik olduğunu mən sonradan daha yaxından gördüm və sonradan bu elita deyilən adamlara yaxın olduqdan sonra mən belə bir qənaətə gəldim ki, bu toplunu o zaman yalnız və yalnız Anar müəllim çıxara bilərdi.

Anar müəllim o jurnalın o zamanki sahibi və baş redaktoru olaraq bütün bildiyini bizə verirdi və "xalqa verin" deyirdi...

**Tofiq ABDİN**

Bu yaxınlarda mən Anarın "Göz muncuğu" kitabını rus dilinə çevirdim. Çox maraqlı və dərin əsərdir, müdhiş sirlərlə doludur. Çoxdandır Azərbaycan ədəbiyyatında belə dərin məzmunlu, gözəl şəffaf bir dillə yaradılmış parlaq xarakterləri olan əsərə rast gəlməmişdim. Dili sadə olsa da mətləb fəlsəfi cəhətdən zəngin və mürəkkəbdir. Tərcümə üzərində məmnuniyyətlə işləyirdim və elə bilirəm ki, əsər rus dilində də alındı. Şübhəsiz, Anarın bu kitabı çağdaş Azərbaycan nəsrində hadisədir.

**Natiq RƏSULZADƏ**
***"Exo" qəzeti, 13 iyun 2015***

Anar mənim gəncliyimdir. Qismətim belə gətirdi ki, Azərbaycan dili mühitində böyüməmdim. Rus məktəbində oxuyurdum, hamımız beynəlmiləlçi tərbiyənin bəhrələriydik. Amma biz Anarı oxuyurduq. Deyə bilərəm ki, Azərbaycan ədəbiyyatı mənim həyatıma Anarla daxil oldu. İndiyə qədər onun ilk yazılarının təsiri yaddaşımda canlıdır: bu nə isə təzə bir şey idi, sosialist realizminin dar çərçivəsinə sığmırdı. Anara qədər Azərbaycan nəsrində heç vaxt məhəbbət haqqında belə azad, sərbəst yazmayırdılar. Anar mənə deyirdi: "Sən əsl dostsan, səmimi surətdə deyirsən ki, Yazıçılar Birliyi sədrliyindən get, bu mühit səni yaradıcılığından ayırır. Amma axı biz başa düşürük ki, Birlik dağılsa, jurnallarımız da bağlanacaq, qocaları, cavanları qoruyan da olmayacaq".

Doğrudan da Birliyin qorunub saxlanması da, jurnalların, "Ədəbiyyat qəzeti"nin ən çətin zamanlarda çıxması da Anarın böyük xidmətidir.



*Elmira Axundovayla*

90-cı illərdə Birliyin rəhbərliyindən getməyə qəti qərar verm işdi. Amma Heydər Əliyev xahiş edib ki, getməsin... Anara qarşı mətbuatda ləyaqətsiz hücumlar başlananda fikirləşib ki, getsəm deyərlər təzyiqlərdən çəkinib getdi. Prinsipə görə qalmaq qərarına gəldim.

Dostu Ramiz Rövşən Anarı Ocağın qoruyucusu adlandırır. Mən əlavə edərdim: o hamımızın ümumi mənəvi yaddaşının qoruyucusudur.

**Elmira AXUNDOVA**

Anar - yazıçı, dramaturq, publisist, ssenarist, məşhur filmlərin müəllifi ictimai xadim, öz xalqının mənəvi dəyərlərini dünya miqyasında təmsil edən böyük ziyalı, şərəfli bir ailənin şərəfli oğlu. Mirzə Fətəli Axundov, Mirzə Cəlil, Üzeyir Hacıbəyov yolunun yolçusu, "Ağ Liman"la, "Molla Nəsrəddin - 66"ıyla, "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ylə, "Dədə Qorqud"la, "Uzun ömrün akkordları"yla, "Cavid ömrü"ylə, "Min beş yüz ilin oğuz şeiri"ylə, "Otel otağı"yla, "Ağ qoç, qara qoç"la, "Şəhərin yay günləri"ylə, "Göz muncuğu" ilə əbədiyyatımızda əbədi yer tutan böyük qələm sahibi, ədəbiyyatımızın dünyada yayılması üçün unudulmaz xidmətlər göstərmiş yorulmaz zəhmətkeş.

Anar - gözəl ailə başçısı, yaxşı ata, müdrik və təmkinli insan, yüksək əxlaq və mədəniyyət sahibi, yazıçılarımızın ağsaqqalı, dostumuz, qardaşımız.

Anarın böyüklüyünə salam olsun!

**Zəlimxan YAQUB**



*Zəlimxan Yaqubla*



*Kamal Abdullayla*

Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanında Təhminənin sirri açılmamış qalır - nə Təhminə bu sirri Zaura deyir, nə də Zaur başqa bir yolla bu sirri öyrənə bilir. Sirr Təhminə ilə qəbrə gedir.

Yazıçılar belə bir üsulla təsvir etdikləri hadisənin reallıq gücünü artırmağa çalışırlar: yəni ki, reallıq o qədər güclüdür ki, mən müəllif ola-ola özüm də onun içinə tam şəkildə girə bilmirəm.

Və oxucu müəllifə inanır. Ədəbiyyat da əslində elə bu zaman yaranır. Onun doğuluşundan sonrakı həyatı belə başlayır.

Anar nəsrinin doğmalığı Bakı küçələrinin hər bir tinində yaddan az qala çıxmaq istəyən, amma heç cür yaddan çıxmayan xatirələrin doğmalığıdır. Səninlə üz-üzə gələn və əsla tanımadığın adamların gözlərinin dərinliyindəki doğmalıqdır. Mən bu doğmalığı hər bir cümlədən, hər bir mükalimədən aydın şəkildə duyuram. Elə də olur ki, hər hansı bir personajın arxasına düşürsən, Anar onunla "öz işini qurtarandan" sonra sən öz təxəyyülünü işə salmağa çalışırsan. Bu təxəyyül onun hər hansı bir əsərində kifayət qədər qıcıqlandırıldığından onda, məsələn, "Ağ liman" əsərindən kənarda potensial şəkildə baş verə biləcək belə bir davranış yolunu da cızmaq olur.

**Kamal ABDULLA**

Anarın yaradıcılığıyla tanışlığım şəxsi tanışlığımızdan əvvəl olmuşdur. Onun dil səlisliyi tutdu məni. Öz nəsrimin dili çətin dildir. O isə təbii təhkiyə istedadına malikdir. Ən dərin mətləbləri elə sadə ifadə edir ki, sıravi oxucuya da anlamlı olur və hökmən təsirləndirir. Bu böyük məziyyətdir.



*Afaq Məsudla*

Bir şəxsiyyət kimi də mən onu çox dəyərləndirirəm. Mən kinostudiyada işləyirdim, artıq hekayələr yazırdım, Anar isə artıq tanınmış qələm sahibi olaraq Hacıbəyov haqqında film çəkirdi. Heç bir umacağım olmadan ona ikinci kitabımın əlyazmasını verdim və o, mənim üçün gözlənilmədən ön söz yazdı. Mən, Tərcümə Mərkəzində çalışdığım, istedadlı türkoloq, qəza ucbatından faciəvi şəkildə həlak olmuş Aydın Məmmədovdan sonra Mərkəzə başçılıq etdiyim dövrdə də bizim dostluq münasibətlərimiz davam etdi... Mərkəz bir çox çətinliklərlə üzləşirdi və Anar hər dəfə köməyini, dəstəyini əsirgəmirdi.

**Afaq MƏSUD**

Anar - yalnız yazıçı deyil, o, Azərbaycan mədəniyyətində hadisədir. Zəngin yaradıcı təbiəti, dünya mədəniyyətinə, ədəbiyyatına, musiqisinə, incəsənətinə qeyri-adi bələdliyi ona bütün dünyada Azərbaycan mədəniyyətinin təbliğatçısı olmaq imkanı verir. Onun Vətəninə məhəbbəti övladlarımız üçün etalon ola bilər. Ziyalının sanki içindən işıq gəlir. Yadımdadır Qabil və Fikrət Qoca mənə deyirdilər ki, uzun illər boyu yazıçılar təşkilatında yalnız iki əsl ziyalıyla rastlaşıblar: Ənvər Məmmədxanlı və Anarla.

"Beşmərtəbəli evin altıncı mərtəbəsi" Anarın əlimə keçən ilk kitabıdır. O vaxt cavan idim, insanlar arasında münasibətlərin, kişi-qadın arasında ünsiyyətin yaşantılarını izləmək xüsusən maraqlı idi. Həyata təzəcə qədəm qoyanda, başqalarını tanımağa, dərk etməyə başlayanda, oxşar əhvalatlar baş verir...

Sonralar onun filmlərinə baxdım. Bir dəfə özünün film çəkilişini apardığını gördüm, o vaxt saqqal buraxmışdı, əfsanəvi fiqur kimi görünürdü. Bir gün onu küçədə görüb özüm də bilmədən, yoqin, bir saat olar ardınca getdim...



*Çingiz Abdullayevlə*

Deyəndə ki, məhz onun kimi tolerant, dözümlü adam Yazıçılar Birliyi vəzifəsində olmalıdır, Anar inciyir. Sonuncu qurultay ərəfəsində mən hətta hamıya üz tutub bəyan etmişdim ki, Anar getsə, burada otuz-qırx saniyə, işdən çıxmağım barədə ərizə yazmağım üçün qalacağam. Zənnimcə, elə sədrimiz olmalıdır ki, ən azı ona hörmət bəslənilsin, daha yaxşısı onunla fəxr edilsin.

Anarı kimlə əvəz edəsən ki, heç birinin Azərbaycan mədəniyyətinə verdiyi töhfə onun səviyyəsinə çatmır? Amma belə yanaşma da onun xoşuna gəlmir...

**Çingiz ABDULLAYEV**

## ALİMLƏR, TƏNQİDÇİLƏR

Anarın hekayələri az müddətdə nəinki Sovet İttifaqında, hətta xaricdə də bir çoxlarının diqqətini cəlb etmişdir. Bunun səbəbi üzərində düşünəndə belə bir nəticəyə gəlmək olar ki, gənc istedad ədəbiyyata yeni bir təravət gətirir. Bu təravət milli keyfiyyətlərə malik olmaqla bərabər, bədii ədəbiyyatın ümumi inkişafı, taleyi ilə də bağlıdır. Həyatı həssaslıqla, məhəbbətlə müşahidə etmək, insan taleyi haqqında əsl bir insanpərvər kimi ciddi və səmimi düşünmək - bu sifətlər Anarı yaşından böyük göstərir. Bu cəhətdən "Zəncir" hekayəsi öz ideya məzmunu və orijinal forması ilə kamil bir əsərdir. Hekayə ictimai həyatımızda özünə yer tapan ciddi nöqsanlardan birini klassik deyilə biləcək bədii üsulla ümumiləşdirmişdir... Anar istedadlı bir yazıçıdır, onun qüvvətli qələmi daha qüvvətli əsərlər yazmağa qadirdir.

**Məmməd ARİF**

Anar Dədə Qorqud abidəsində irəli sürülən əsas ideyanı düzgün dərk etmiş, Dədə Qorqud adı ilə bağlı tədqiqatlara yaxından bələd olmuş, istedadlı bir yazıçı olduğundan öz ssenarisində bu çətin vəzifənin öhdəsindən müvəffəqiyyətlə gələ bilmişdir. Son dərəcə istedadlı yazıçı Anarın ssenarisi əsasında çəkilmiş bu film Azərbaycanda baş verən tarixi hadisələri filosof Dədə Qorqud təhkiyəsiylə, orijinal bir şəkildə tamaşaçıya çatdırır.

**Həmid ARASLI**

**Anarın kurs rəhbəri Cəfər Cəfərov.**

**Filoloji fakültənin 4-cü kurs tələbəsi Anar Rzayevin "Azərbaycan xalqının ölməz şairi" elmi işi haqqında rəy.**

İş onun müəllifini bilikli, müstəqil düşüncəli, yaxşı ədəbi zövqü olan, Füzuli poeziyasının gözəlliyini duyan adam kimi səciyyələndirir. İşin "Leyli və Məcnun" poemasının təhlilinə həsr olunmuş hissəsi xüsusiylə ətraflı və yaxşı yazılmışdır. İşin qəbula tamamilə layiq olduğunu hesab edirəm.

**Cəfər CƏFƏROV**



*Rəsul Rza, Cəfər Cəfərovla*

"Adamın adamı" əsərinin tamaşası ilə biz Anarla komediya müəllifi kimi də üz-üzə gəlir, onun bu yeni yaradıcılıq müvəffəqiyyətinə sevinirik. Anar ümumiyyətlə müasir həyata müdaxilə edən yazıçılardandır. "Adamın adamı" komediyası ilə onun yaradıcılığının bu xüsusiyyəti yeni bir vüsət almışdır. Müəllifin gülüşü bir qədər tünd və mübalığəli görünsə də, real və inandırıcıdır. "Əyrizadələrlə" mübarizədə güzəştə, yumşaqlığa yetmək yaramaz.

**Abbas ZAMANOV**

Səhnədə inqilabdan əvvəlki Azərbaycanın tragikomik mənzərələrini görürük. Azərbaycan Dövlət Akademik Dram Teatrında yeni tamaşa gedir - "Sizi deyib gəlmişəm". Müəllifi - Anardır. Qəribə olsa da faktdır: sәnhədən Anarın öz mətni səslənmir. O tamaşaçıya qeyri-adi quruluşu olan ədəbi montaj təqdim edir. Aktyorlar Azərbaycan ədəbiyyatının müxtəlif əsərlərindən parçaları ifa edir, onları yaradan yazıçılar isə pyesin qəhrəmanlarıdır. Çeşidli epizodları və süjet xətlərini maraqlı yaradıcılıq axtarışlar yoluyla üzvi surətdə əlaqələndirmək uğurlu nəticələr vermişdir.

**Əziz MİRƏHMƏDOV**

C.Məmmədquluzadə haqqında səhnə əsəri yazmaq bədii həlli çətin axtarışlar tələb edən yaradıcılıq vəzifəsidir. Ümumiyyətlə, uzun illərin təcrübəsi göstərir ki, böyük ədəbi şəxsiyyətlərin həyatına, fəaliyyətinə müraciət heç də həmişə nəticələnməmişdir.

Hiss olunur ki, mürəkkəb və çoxsahəli mövzunun dramaturji həllində Anar da böyük çətinliklərlə qarşılaşmışdır. Ancaq o, maraqlı bir üsula - əslində edibin özünün faydalandığı bir üsula müraciət etmişdir.

Pyesdə də biz C.Məmmədquluzadəni hadisələrin bilavasitə iştirakçısı kimi yox, hadisələri kənarda seyr edən, mənalandıran, onlara münasibət bildirən personaj kimi görürük.

"Sizi deyib gəlmişəm..." janr etibarı ilə sənədli-tarixi pyesdir. Janrın tələblərinə cavab vermək üçün maraqlı üsuldan istifadə olunmuşdur.

**Kamal TALIBZADƏ**

Mən çox istərdim ki, Anarı tarixçilər də tanısın, çünki yazıçıların heç də hamısı mütəfəkkir deyil, yazıçıların heç də hamısı tarixi belə duymaq fəhminə malik deyil. Vacibdir ki, yazıçı özünün ədəbiyyatda mövqeyi haqqında düşünməkdənsə iştirakçısı olduğu tarixi proseslər haqqında fikirləşsin. Anar məhz bu cür hərəkət edir. Oxuduqlarım kifayət edir ki, bu adamın ürəyinin necə ağrıdığını hiss edim, bu dünyada ədalətsizlikləri necə ürəyinə saldığım, həyatda rastlaşdığı səfehliklər və murdarlıqlardan necə əzab çəkdiyini bilim. Bu da hər yazıçının işi deyil. Anarın "Azərbaycançılıq haqqında düşüncələri" çox xoşuma gəldi. Bu düşüncələrində Anar Azərbaycanın humanizmin hansı dəyərlərinə malik olduğunu dərk etmək istəyir, dünya dəyərləri içində özününküləri necə tapmağın və qoruyub saxlamağın fikrini çəkir.

**Əhməd İSGƏNDƏROV**

*Rusiya Elmlər Akademiyasının akademiki, "Voprosı istorii" jurnalının baş redaktoru*

Anar bəy Azərbaycanın böyük yazıçısı, ədəbiyyatşünası, dramaturq və ictimai xadimidir.

Anar çağdaş Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinə yenilikçi bir sənətkar və ictimai fikir tarixinə öncül bir mütəfəkkir kimi daxil olmuşdur.

60-cı illərdə Azərbaycanda zühur edən ədəbi-bədii fikirdə və milli ictimai təfəkkürün yeniləşmə cərəyanında, Anar digər həmkarlarının önündə gedirdi.

Anar əsərlərində XX əsrdə ölkəsinin keşməkeşli həyatını əks etdirir. Onun yazılarında digər sovet dönəmi yazıçılarından fərqli olaraq fabrika, tarla və əkinlərdən söhbət getmir. Anar daha çox öz içində yaşayan və fikirləri və dərdlə-

# Anar haqqında



*Cavad Heyətlə*

ri ilə baş-başa qalan bir şəxsiyyətdir. Onu anlaşılmamaq dərdi həmişə narahat eləyir və əsərlərində özəlliklə "Gecə düşüncələri" əsərində bu dərd aydın şəkildə görünür.

Anar böyük bir Azərbaycançı və türk ziyalısıdır. "Azərbaycançılıq haqqında düşüncələrim" ünvanlı məqaləsində öz əsas fikrini beş sözlə (kəlamla) ifadə edir:

"Azadlıq, müstəqillik, bərabərlik, qardaşlıq və dostluq".

Anar bəyin insan, xalq və vətən sevgisi ilə yazdığı bu məqaləni (20 səhifə) mən "Varlıqda" nəşr etdim və indi onu yenidən diqqətlə bir daha oxudum. Mən müəllifin özünə də dediyim kimi onun bu fikirləri ilə razılaşıram və etiraf etməliyəm ki, onların çoxusu mənim fikirlərim ilə üst-üstə düşür.

**Cavad HEYƏT**

"Kitabi-Dədəm Qorqud" motivləri əsasında Azərbaycan yazıçısı Anar "Dədə Qorqud" adlı povest yazmışdır. Povestini elə qurmuşdur ki, burada qədim abidənin demək olar ki, bütün süjetləri, süjet xətləri, epizodları və hətta ayrı-ayrı motivləri işıqlandırılmışdır. Bununla bərabər povest tamamilə orijinal əsərdir. İlk mənbədəki müxtəlif süjetli dastanlardan bitkin kompozisiyalı əsər yaradarkən Anar böyük məharət göstərmişdir. Faktiki olaraq o, oğuzların epik tarixini ümumiləşdirmiş. Onların başına gələnləri, nə sayaq və hansı ideallarla yaşadıqlarını bədii şəkildə mənalandırmışdır.

**Xalıq KOROĞLU**

Anar - iliyinədək milli ruhlu insandır, eyni zamanda bəşər oğludur, çünki varlığında Azərbaycan milli xarakterinin gözəl məziyyətləri cahan insanı cizgiləri ilə heyrətamiz ahəngdarlıqla qovuşur.

Anarın "Gecə düşüncələri"ni oxuyarkən bu qənaətə gəlirsən.

Qarşımızda tamamilə yeni, indiyədək görmədiyimiz, bilmədiyimiz bir Anar sürəti canlanır. Burada kövrək və həssas, sevən və nifrət edən, sentimental və ayıq, aşıq və qərarsız, istehzalı və tünd çalarlı, ümumiyyətlə isə dünyanın ən həlim insanını görürük!

Anar böyük bir Azərbaycançı və türk ziyalısıdır. "Azərbaycançılıq haqqında düşüncələrim" ünvanlı məqaləsində öz əsas fikrini beş sözlə (kəlamla) ifadə edir: "Azadlıq, müstəqillik, bərabərlik, qardaşlıq və dostluq". Anar bəyin insan, xalq və vətən sevgisi ilə yazdığı bu məqaləni (20 səhifə) mən "Varlıqda" nəşr etdim və indi onu yenidən diqqətlə bir daha oxudum. Mən müəllifin özünə də dediyim kimi onun bu fikirləri ilə razılaşıram və etiraf etməliyəm ki, onların çoxusu mənim fikirlərim ilə üst-üstə düşür.

"Gecə düşüncələri" - əsrin övladının etirafnaməsi, müəllifin söylədiyi kimi, "bu dünyada səmimiyyətin mümkün olacaq dərəcəsində" öz-özüylə apardığı səmimi söhbəti, çoxcəhətli istedadının son həddə çatan könül varlığıdır.

Anar həqiqətən də insanın bir hadisə , əksər qismi suyun altında qalan aysberqə bənzər olduğunu təsdiqləyir. "Gecə düşüncələri"ndə aysberqin gizli qalan hissəsi görüntüyə gəlir.

**Gülrux ƏLİBƏYLİ**

Allahın xoş saatda yaradıb böyük səxavətli, qüvvətli istedad əta etdiyi Anar klassik ədəbi irsimizlə sabahkı estetik fikrimiz arasında mötəbər mənəvi körpü kimi sözün müstəqim mənasında barmaqla sayılan qədər nadir sənətkarlarımızdan biridir.

Artıq hamı etiraf edir ki, Anarın və onun mənsub olduğu yazıçılar nəslinin fəaliyyəti ilə ədəbiyyatımızda yeni bir tarixi mərhələnin ədəbi-estetik dəyərləri, bədii-fəlsəfi meyar və prinsipləri formalaşmışdır.

Anar öz məqalələrində yalnız tənqidçi kimi yox, həm də ədəbiyyatşünas kimi, klassik və müasir ədəbiyyatımızın tarixi və nəzəri problemlərini araşdıran peşəkar bir ədəbiyyatşünas kimi də ardıcıl olaraq çıxış edir.



*Bəkir Nəbiyevlə*

Anarın peşəkar ədəbiyyatşünaslıq araşdırmalarından biri onun "Dədə Qorqud dünyası" (1985) miniatür monoqrafiyasıdır. Bu əsərdə müəllif qədim milli eposumuzun mətninin dərin qatlarına nüfuz edərək dastanın bədii aləmini, ondakı insan xarakterlərinin zənginliyini və dolğunluğunu açıb göstərə bilmişdir.

**Bəkir NƏBİYEV**

Anarın dil qayğılarının ən güclülərindən biri ana dili qarşısında yazıçı, ziyalı məsuliyyətidir. "Müstəqil qəzet"ə verdiyi müsahibədə bu haqda yazıçı özü belə deyir: "Çox xahiş edirəm ki, mənim fikirlərimi olduğu kimi oxuculara çatdırasınız. Çünki mən yazıçı kimi, ziyalı kimi Azərbaycan dili qarşısında öz məsuliyyətimi hiss edirəm. Yazıçılar birliyinin rəhbəri kimi isə bu məsuliyyət ikiqat artır. İstəmirəm ki, gələcək nəsillər məni kənara çəkilməkdə, susmaqda qınasın". Bu sözləri Anar respublikamızda dövlət dili haqqında qanunun qəbul olunmasından 17 gün sonra deyib.

Anarın fikri və mövqeyi aydın idi. O, təmkinlə öz fikrini deyir və özünəməxsus güclü məntiqi ilə onu əsaslandırırdı: "Son vaxtlar Azərbaycan dili haqqında deyirlər ki, guya bu, ləhcədir. Mən bu fikrin qəti əleyhinəyəm...

Türkiyədə olarkən dil üzrə mübahisələrdə mənə deyirdilər ki, ləhcə sizin anlamda deyil, ləhcə ayrı şeydir. Mən dedim ki, yaxşı, siz Ukrayna dilinə ləhcə deyirsinizmi? Belarus dilinə ləhcə deyirsinizmi? Yox. Bəs Azərbaycan dili niyə ləhcə olmalıdır?



*Ağamusa Axundov və Cabir Novruzla*

Ləhcə küçədə, bazarda, evdə danışılan dildir. Bir də bədii əsərlərdə personajların dilində ləhcə ola bilər - Bakı ləhcəsi, Qazax ləhcəsi, Şəki ləhcəsi, Göyçay ləhcəsi və s. Ədəbi dil ləhcə ola bilməz". Bu, Türkiyədə Azərbaycan dilini ləhcə adlandıranlara Anarın cavabı!

Azərbaycan dili qarşısında bir yazıçı kimi, bir ziyalı kimi öz məsuliyyətini heç zaman unutmayan Anar ana dilinə münasibətdə həmişə obyektiv və səmimi olmuşdur və səmimidir.

Beləliklə, tezislərdən ibarət olan yazı sona yetir və mən onu Anarın M.F.Axundova həsr etdiyi "Sübhün səfiri" adlı məqaləsinin sonuncu cümləsi ilə və ona münasibətimi bildirməklə qurtarıram. Həmin cümlə belədir: "Bu dahilərin bəxtidir. Dünyaya vaxtından erkən gəlmək, müasirləri arasında qərib kimi yaşamaq, yaşadığı zamanın içində gələcəyin elçisi, sabahın səfiri olmaq..." Oxuyuram. Düşünürəm. Anarın bütün həyatı gözümün önündən keçir və haqlı olduğuma min dəfə əmin oluram ki, bir olan Tanrı Anarın özünə də məhz belə bir tale verib.

**Ağamusa AXUNDOV**

Mənim düşüncəmdə Anar, birinci növbədə, ədəbi vətəndaşlıq örnəyidir - Mirzə Cəlil, M.Ə.Sabir, R.Rza kimi. Belə insanları ilə vətən, millət öz Məcnunlarına qovuşur, onların vurğunluğuna aşiq olur.

Anar iliyinəcən milli ideoloqdur. O, ideya yazıçısıdır. Onun bədii əsərləri oxucularında həm yüksək estetik zövq yetişdirir, oxucularını böyük, bəşəri dünya ədəbiyyatının oxucusu kimi hazırlayır, həm də onlarda millətin övladı olmaq ideyası yaradır, millətə, vətənə, dövlətə isti sevgi aşılayır. Bu yolda onun öyrəndiyi, görüb-götürdüyü böyük Azərbaycan ədəbiyyatı olub, dahi sələfləri olub. Hamısını sevib, ancaq Mirzə Cəlili örnək seçib. C.Məmmədquluzadə "gözünü açanda dünyanı qaranlıq görüb". Anar dünyaya gözünü açanda Rəsul Rza evinin işığına baxıb. Mirzə Cəlil ədəbiyyata gəlib ki, bu qaranlıqdakı millətinin şüuruna işıq versin. Anar Rəsul Rza evinin işığında oxuyub, öyrənib, eşidib və Nəsimi, C.Məmmədquluzadə, M.Ə.Sabir, R.Rza döyüşkənliyinə yiyələnib.

Anarın üslubu sinkretikdir. Onun üslubunda üç dəst-xətt var... Anarın "Sizsiz"i sənədli nəsrin etalonudur, bütün parametrləri ilə, o cümlədən dili ilə. Bu Anarın birinci üslubudur, yəni üslubunda birinci dəst-xətdir. Yaradıcılığa bu üslubda başlayıb, bu gün də davam edir. Onun ömürlük üslubudur. Anarın ikinci üslubu mollanəsrəddinçi yönündədir. Bu, nisbətən sonra, 60-cı illərin ortalarında üzə çıxıb, konkret əsərlərindədir. Daha dəqiq: "Molla Nəsrəddin 66" bədii silsiləsindədir.

Anar həmişə cəsarətli yazıçı olması ilə seçilib: o, bu cəsarəti "Molla Nəsrəddin" məktəbindən öyrənib, öz evlərində də o, həmişə cəsarətin şahidi olub.

Anarın üçüncü üslubu folklor biçimdədir. Daha dəqiqi: "Dədə Qorqud kitabı"nın dil,üslub xüsusiyyətləri bu dəstxəttin əsasıdır. Bu dil yazıçının "Dədə Qorqud" kinodastanındadır. O, dastanın dilini, ahəngini qoruyub saxlamışdır.

**Tofiq HACIYEV**

Anar hələ "Ağ liman"da ənənənin sərhədini pozur və öz insan konsepsiyasını əkinçinin, fəhlənin konkret həyat təcrübəsi və əmək meyarı ilə yox, ziyalının "mənəvi dəyər" və "əxlaqi sərvət" təsəvvürünün guşə daşı ilə yoxlayıb sınaqdan keçirir.



*Yaşar Qarayevlə*

# kim nə demiş...

Daha iri nəsr nümunələrində isə Anar həqiqətə və ünsiyyətə aparan yolu, təbii-genetik əlaqə estafetini artıq fərdlər yox, daha çox zamanlar və yaddaşlar arasında axtarır. "Beş mərtəbəli evin altıncı mərtəbəsi", "Macal" və "Əlaqə" povestləri məhz bu baxımdan Anarın ədəbi-fəlsəfi axtarışlarında artıq yeni bir mərhələni ifadə edən bədii üçlükdür. Bunlarda yenə də məhz Zamanla bağlı siqlətli ictimai problemlərə toxunulur.

Üçüncü on ildir ki, Anarın nəsri məhz belə bir iri hərfli Zamanla həmahəng bir marafonda özünəməxsus ədəbi nəfəs və ehtirasla iştirak eləyir, mənəvi, əxlaqi və ideoloji həyatımızda həqiqətin, aşkarlığın, yeniləşmənin nüfuzu artdıqca bu nəsrin bədii aktuallığı və sosial təsir gücü çoxalır. "Ağ liman"dan başlayan çətin yol, hələ adsız üfüqə, ünvansız və sahilsiz dənizə kəşfiyyat səfəri davam edir...

**Yaşar QARAYEV**

Anarın hədəfləri kimlərdir? Qorxaqlar və yaltaqlar, rüşvətxorlar və müftəxorlar, sözbazlar və yerlibazlar, mənsəbpərəstlər, riyakarlar, böhtançılar... Yazıçı bu



*Araz Dadaşzadəylə*

tipləri özünəməxsus şəkildə ifşa edir, lakin çılpaq nəsihətamiz didaktik tənqiddən qaçır. O öz sələfləri Mirzə Cəlil və onun silahdaşlarının yolunu davam etdirərək yenilikçi bir satirik-yumoristik üslub yaratmışdır desək, yəqin ki, çox da mübaliğəyə yol verməyik. "Sizi deyib gəlmişəm" pyesi Anarın başqa satirik əsərlərindən tamamilə seçilir. Pyesdəki sarkazm, düşündürücü gülüş onu Saltıkov-Şedrin, Mirzə Cəlil, Sabir gülüşü ilə yaxınlaşdırır, doğmalaşdırır. Anar artıq ədəbiyyatın yetkinlik pilləsinə qədəm qoymuşdur. Lakin onun qələmi həmişə cavandır. Çünki onun nəbzi qurub-yaradan, düşünən, axtaran insanların, müasirlərinin nəbzi ilə birgə döyünür.

**Araz DADAŞZADƏ**

Anar yaradıcılığının ən qüvvətli cəhəti məhz bu insan dəyərlərini açmaq, özü də o insanların öz gözləri, öz ölçüləri ilə açmaqdır. Anarın obrazları mənfilik, müsbətlik və tamtəraqlı konfliktlər xatirinə qəlibə salınan ekzotik nümunələr deyillər, onlar sırf real insanlardır və hər konkret situasiyada öz real insan xislətləri ilə çıxış edirlər. Anar polifonik yazıçıdır.

**Aydın MƏMMƏDOV**



*Aydın Məmmədovla*



*Arif Əmrahoğluyla*

Anarın əsərlərində insan təkdir, tənhadır, amma boş deyil. "Otel otağı"nı oxuyanda mən istər-istəməz Kafkanın "Proses", "Qala" əsərlərinin mütaliəsi vaxtı keçirdiyim hissləri yaşadım. Bizim hər birimiz otel otağında yaşayırıq. Kimimiz bunu dərk edir. Kimimiz yox. Anarın yazıçı istedadının gücü bir də onunla seçilir ki, həyatın əbədi tragizminin təsviri barışmazlığın faydasızlığının qorxusunu, xofunu yaratmır. Əksinə, məhz barışmazlığın faydasızlığını dərk etməklə yaşamağın zəruriliyinə və gözəlliyinə inam yaradır... Anarı sevənlər çoxdur, amma ondan xoşu gəlməyənlər də var. Haqsız tənqidlərdə, atmacalarda bəzən onu Bitov və b. kimi yazıçı olmağa cəhddə qınayanlarla əlaqədar günlərin bir günü Anar dedi: "Niyə məhz Bitov, bəlkə mən Mamin-Sibiryak olmaq istəyirəm". Əslində bu acı bir gülüş idi: "Mən elə Anaram". Onu məhz ömrü boyu Anar olaraq qaldığına görə sevirlər, ondan bir də məhz ömrü boyu Anar olaraq qaldığına görə xoşları gəlmir...

Nə yaxşı ki, Anar varmış, yoxsa Gülrux xanım Əlibəyli demişkən, həyatımızda böyük bir boşluq olardı.

**Arif ƏMRAHOĞLU**

### *"Biz həmişə zərərçəkən rolunda çıxış eləmişik"*

Qəribə də olsa o illərdə filoloji gəncliyin idealı Əbülfəz deyil, Anar idi. Biz dissident hərəkatını o vaxt lazımınca dərk etmirdik. Dissident xəyalatı bizim üçün əlçatmaz, "o uzaq, yaşıl ada" kimi bir şey idi. Mövqeyə qaldıqda məni vətəndaşlıq heysiyyəti və bu heysiyyəti yazı və çıxışlarında ifadə etmək bacarığı cəzb edirdi. Anar bu işin öhdəsindən çox yaxşı gəlirdi. Onun mətbu sözü milli-mütərəqqi rəyin formalaşmasına əsaslı kömək edirdi. Məsələn, "Gəzməyə qərib ölkə..." adlı yazı ilə biz əmin olduq ki, görkəmli ziyalılarımızın mühacirət odisseyası olub. Basmaqəlib ustalarının, mədhiyyəçi və bahariyyəçilərin zümzümələri ilə müqayisədə Anarın çıxışları əsl inqilab idi.

**Nazif ƏLƏKBƏRLİ**

Görkəmli nasirimiz Anarın "Otel otağı" povesti ilə hələ il yarım bundan əvvəl, əlyazması şəklində tanış olmuşdum. "Otel otağı"nın bir oxucu, bir ədəbiyyat adamı kimi son illərdə məni ən çox duyğulandıran, ən çox kövrəldən və düşündürən bədii sənəd olduğunu etiraf etməyi özümə borc bilirəm.

Anarın povestində bu günümüz üçün vacib olan çoxlu problemlərə toxunulmuşdur. Müəllifin uğurla bəhrələndiyi assosiativ-xatırlama üsulu və "Şüur axını" prinsipinə əsaslanan təhkiyə bu problemləri tarixi fonda, sosial və fəlsəfi aspektdə izləməyə imkan yaratmışdır. Anar sanki nəsr yaradıcılığında arzuolunmaz fasilənin meydana çıxdığı bu neçə ildə deyə bilmədiklərinin hamısını bu əsərin səhifələrinə gə-



*Vilayət Quliyevlə*

tirməyə çalışmışdır. Digər tərəfdən "Otel otağı" yazıçının istər Türkiyə ilə, istərsə də müasir Azərbaycan həyatı ilə bağlı kifayət qədər geniş müşahidələrinin, ədəbi materiallarının olduğundan xəbər verir və ümid etmək istərdim ki, həmin müşahidə və materiallar tezliklə bədii təxəyyül süzgəcindən maraqlı, düşündürücü, lazımlı əsərlərə çevriləcək.

**Vilayət QULİYEV**

"Molla Nəsrəddin - 66" klassik satira ənənəsi ilə çağdaş ciddi ədəbiyyatın vəhdətindən yoğrulmuş yeni tipli satiradır. Bu, böyük ustad Mirzə Cəlilin sənət ənənələrinin, yaxud "Molla Nəsrəddin" jurnalının yenidən dirçəldilməsi və ya çoxillik fasilədən sonra olduğu kimi bərpası demək deyildi. Bu, - möhkəm təməl və mövcud ənənə zəminində ədəbiyyatda yeni dövrün mollanəsrəddinçiliyinin yaradılması demək idi. Və o vaxt cəmi 30 yaşında olan Anar parlaq istedadın məhsulu olan bu satirik hekayələr silsiləsinə görə Azərbaycan ədəbiyyatının yeni dövrünün Molla Nəsrəddini olmaq səlahiyyətini qazana bilmişdir.

Yeri gəlmişkən, böyük Mirzə Cəlil sənəti və Anar münasibətləri haqqında söz deməyə ehtiyac vardır.



*İsa Həbibbəyliylə*

Mirzə Cəlilin ömür və sənət yoluna həsr olunmuş "Anlamaq dərdi" essesi isə yazıçı və zaman probleminin düşünülmüş elmi-ədəbi dərki və qabarıq ifadəsi idi. Bu qiymətli əsər Azərbaycan ədəbi ictimai fikrində "Mirzə Cəlil - necə varsa" təqdimatının birinci sənət proqramı, bəlkə də ilk ciddi manifestidir.

Böyük Mirzə Cəlilə həsr olunmuş "Qəm pəncərəsi" filmində də tarixiliklə müasirlik vəhdətdə təqdim olunmuşdur. Bu uğurlu film-portret Mirzə Cəlilin yalnız sənət uğurlarını deyil, cəmiyyətin müxtəlif qütblərindən gələn ağrılarını da bütün təbiiliyi və aydınlığı ilə əks etdirir.

Cəlil Məmmədquluzadə və Anar bağlılığı və əlaqəsi də eyni mənaya və məzmuna malikdir. Üzeyir Hacıbəyovun XX əsrin əvvəllərinin yeni "Leyli və Məcnun"unu yaratdığı kimi, Anar da 70-80-ci illərin orjinal Molla Nəsrəddinnaməsini yazmışdır.

"Nigarançılıq" filmi Mirzə Cəlil - Anar münasibətlərində yeni mərhələdir. Xalq yazıçısı Anar burada Cəlil Məmmədquluzadənin "Nigarançılıq", "Qurbanəlibəy", "Quzu" və "Usta Zeynal" hekayələrinin motivi əsasında, bu məsələlərin hamısının ana xətlərini birləşdirən tam, bütöv və yeni bir əsər yaratmağa müvəffəq olmuşdur.

**İsa HƏBİBBƏYLİ**

O sözləri ki, indi mən burada Anar haqqında yazıram, onları həqiqət yox, tərif hesab edənlər də şübhəsiz ki, tapılacaq (biri elə Anar özü). Qəribədir. Bir adam canlı klassikdirsə, niyə onun klassik olduğunu bəyan etməyə simiclik göstərməliyik? Yaratdıqları və şəxsi nümunəsi ilə axırıncı üç on il içində bir məktəbə çevrilmiş Anarın canlı, cavan, daimi inkişafında olan klassikliyini niyə etiraf etməyək?! Son üç on il ərzində Azərbaycan gəncliyinin ədəbi-mədəni zövqünə Anar qədər çox əhəmiyyətli və müsbət təsir gös-



*Rəfael Hüseynovla*

tərmiş şəxsiyyət olmayıb. XX yüz ildə Azərbaycan ziyalılığının tarixini seyr edərkən Anardan miqyaslı, Anardan çoxşaxəli, Anardan üstün olacaq sima gözə dəymir. Anar məktəbdir.

Ötən şənbə günü Ümumittifaq teleekranında Azərbaycan dramaturqunun əsəri oynanırdı. Yaxşı hadisədir ki, Anarın "Səhra yuxuları"nı sovet tamaşaçılarına Moldav teatrı təqdim edirdi.

Keçən il, beləcə yağışlı payız günlərində A.S.Puşkin adına Qırmızı Əmək Bayrağı ordenli Moldaviya Akademik Musiqili Dram Teatrı Moskvanın qonağıydı və Malı teatrın binasında qastrol tamaşaları verirdi. Repertuarında özlərinin klassik və müasir dramaturgiya nümunələri ilə yanaşı, Anarın bu pyesi də vardı.

Bu kitab dörd böyük azərbaycanlının səsidir.

Mirzə Cəlilin, Sabirin, Rəsul Rzanın, Anarın.

Amma onu iki nəfər yazıb - ata və oğul, Rəsul Rza və Anar.

Bu dörd böyük yaradıcının ayrı bir müştərək cəhəti də onların hər birinin məktəb yaratmasıdır.

Anar ədəbiyyata gəldiyi ilk çağlardan məktəbə çevrilməyə başlayıb. Ondan öyrəniblər, ona bənzəməyə çalışıblar.

Anardan daha cavan olanlar da, elə Anarın tay-tuşları arasında neçələri də. Amma Anar iki əsas müəllimi - Mirzə Cəlil və Rəsul Rza kimi məxsusi bir məktəb də yaradıb: "Qobustan" gözəl sənətlər toplusu.

Anar ömrü boyu dildə, ədəbiyyatda, mənəvi həyatda, ictimai-siyasi gerçəkliklə dərəbəyliyə, cahilliyə, riyakarlığa, sürüşkənliyə, cılızlığa, şitliyə, ədabazlığa, zövqsüzlüyə qarşı savaş aparmışdı. Çoxlarını çaşdıran büsbütün başqa vaxt başlandı, sabitqədəm Anar yenə həmin mötəbər məslək yolunda qaldı.

**Rəfael HÜSEYNOV**

Mən həmişə Anarın görkəmli yazıçı olması ilə yanaşı, həm də onun ensiklopedik bir zəka sahibi olduğunu xüsusi vurğulamışam və təbii ki, bu cür istedad onun elmi-bədii publisistikasında da özünü göstərir. Sadəcə bir örnəklə kifayətlənmək istərdim.

Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" birbaşa Füzuli yaradıcılığının təsiri altında qələmə alınmış mükəmməl bir eşq dastanıdır. Dastanlarımızda olduğu kimi, burada da nəsr və nəzm bir-birini üzvi surətdə tamamlayır.

"Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı on səkkiz fəsil və epiloqdan ibarətdir. Bunların hamısı Füzulinin ölməz



*Teymur Kərimli*

yaradıcılığından alınmış dahiyanə beytlərlə başlayır ki, bu da əsərə ürəyəyatan bir orijinallıq verir.

Beləliklə iki qardaşın birinin nəzm, birinin nəsr dili ilə əsrlərin üzərindən sənət yarışına girərək ölməz əsərlər yaratdığını görürük.

Bu fikirdən çıxış edərək deyə bilərəm ki, Anarın yaradıcılığını hərçəndi müxtəlif əsərlər üzrə təhlil etməyə girişirik, ancaq bu böyük yazıçının yaradıcılığı dahi Qorqudun kitabı, dahi Nizaminin "Xəmsə"si, dahi Füzulinin anadilli yaradıcılığı kimi bütövdür, bölünməzdir və bu bütövü də bütöv şəkildə araşdırmaq biz ədəbiyyatşünasların və mədəniyyətşünasların borcudur.

**Teymur KƏRİMLİ**

Anar Azərbaycan ədəbiyyatının qurucularından, eyni zamanda liderlərindən biridir. 60-cı illərin ədəbiyyatı Azərbaycanın müasir siyasi fikrinin bünövrəsində dayanır. Çünki Azərbaycanın istər müstəqilliyilə, istər demokratikləşməsiylə, istərsə də Qərb və Şərq dəyərlərinin bir araya gətirilməsiylə bağlı indiki bu duruma gəlib çıxan yolların hamısı o vaxtkı dövrün bədii fikriylə sıx əlaqədədir. Bu mənada Anarın baş redaktor olduğu "Qobustan", onun "Anlamaq dərdi", "Ağ liman", "Molla Nəsrəddin - 66" və başqa əsərləri, hekayələri bu fikrin yaradılmasında, formalaşmasında güclü rol oynayıb. Anar xüsusi istedadı olan nasirdi. Onun nəsri insanın psixologiyasını, daxili çəkişmələrini, ziddiyyəti, insan və həyat fəlsəfəsini təfərrüatı və dolğunluğuyla ifadə edir.

Anarı həm də ona görə çox sevirəm ki, dünyanın müxtəlif tribunalarında çıxış etməklə mənim millətimin başını uca edib, inanıram ki, bundan sonra da xalqıma başucalığı gətirəcək.

Mənim tanıdığım Anar mənim həyatımın, yaşadığım 52 ilimin əziz adamıdır.

Öyrəndiyim "Dədə Qorqud" üçün, sevdiyim Mirzə Cəlil üçün, vurğunu olduğum Üzeyir bəy üçün, Səttar Bəhlulzadə,Vaqif Mustafazadə, Xudu Məmmədov üçün Anara minnətdaram.

Yeni ədəbiyyat zövqü və daşıdığım, sahib olduğum düşüncə üçün Anara borcluyam, mən tanıdığım Anara... hamısını demədim. Yaşayırıq, yazırıq, yaşayacağıq və yazacağıq.

**Kamil Vəli NƏRİMANOĞLU**

Anarın hələ ki, iki hissəsi ilə tanış olduğumuz "Söz dünyası" əsərini məncə, bütövlükdə Azərbaycan ədəbiyyatının kitabı adlandırmaq olar. Janrını təyin etmədən, böyük hərflə yazılan Kitab anlamında;

Oxuduqca düşünürdüm, buna bənzər kitabımız varmıdır? Ki, milli ədəbiyyatımızın Obrazını bütövü, bütünü ilə, möhtəşəm miqyaslardan təfərrüatınacan, canlı gəlişmədə cızmağa, ayrı-ayrı mətnlərini bütünlükdə bir Mətn kimi oxumağa səy etsin. Zarafat deyil, Anarın təqdimatında 1500 illik bir Ədəbiyyat nəhəngindən söhbət gedir!

Anarın "Söz dünyası" maariflənmək, maarifləndirmək baxımından da əvəzsiz kitabdır.

**Tehran ƏLİŞANOĞLU**

Otel otağı!.. Azərbaycan ədəbiyyatının, mənim fikrimcə, keçən əsrin sonlarına doğru gəlib çıxdığı (kəşf etdiyi) ən mükəmməl obrazdır - son əlli il ərzində bizim ədəbi-bədii (ola bilsin ki, hətta ümumən ictimai təfəkkürümüz) bundan daha mükəmməl, daha həyati, daha təsirli bir obraz yaratmamışdı.

Anarın "Ağ qoç, qara qoç"u siyasi nağıllardır... Və bu nağıllarda "Birləşmiş Azərbaycan Respublikası" siyasi metaforası bizim tarixi ideallarımızın ifadəsi, əsrlərlə aparılmış xarici (və daxili!) mübarizələrin, mücadilələrin başlıca məqsədi kimi olduqca canlı, olduqca gözəldir. Anar həmin Respublikanın ilk Konstitusiyasının əsas müddəalarını - nağılını yazır:

Və mənim bu nağıla inanmağım gəlir... Çünki Anara inanıram...

Mən elə bir yazıçı təsəvvür edə bilmirəm ki, özünə qədərki ədəbiyyatın elmi ilə Anar qədər dərindən məşğul olmuş, Azərbaycan ədəbiyyatı haqqında onun qədər söz demiş olsun... Dədə Qorquddan başlamış Səməd Vurğuna qədər ədəbiyyat tariximizin, demək olar ki, bütün zirvə, korifeyləri haqqında yazmış, onların yalnız Azərbaycanda deyil, ölkəmizdən çox-çox kənarlarda da tanınması üçün həmişə ürəkdən çalışmış Anar varisi olduğu Azərbaycan ədəbiyyatı tarixi qarşısında övlad borcunu yalnız ləyaqətlə ödəməklə kifayətlənməmiş, eyni zamanda həmin tarixi özündə canlı (və yaradıcı) bir şəkildə təzahür etdirməyin klassik təcrübəsini vermişdir.

"Otel otağı" kitabı bir daha göstərir ki, Anar 60-cı, 70-ci, illərdə olduğu kimi, 90-cı illərə də Azərbaycan ictimai-ədə-



*Nizami Cəfərovla*

bi həyatının önündə gedir, cəmiyyətdə baş verən hadisələr, Azərbaycan insanının düşdüyü sosial-mənəvi problemlər onu həm bir yazıçı-publisist, həm də bir yazıçı-filosof olaraq get-gedə daha dərindən maraqlandırır, yaradıcılığının miqyasını genişləndirir, metodologiyasını mükəmməlləşdirir, dünyanın ən böyük yazıçıları sırasına çıxarır təfəkkürün səviyyəsi ilə, emosiyanın gücü ilə. Üslubunun böyüklüyü ilə...

Anarın Türk dünyasına xidməti barədə danışarkən ən azı üç məqama xüsusi diqqət verməK lazım gəlir.

1) o, müasir Türk dünyasının ən böyük yazıçı-mütəfəkkirlərindən biridir;

2) Türk dünyasının ədəbi, mədəni və mənəvi birliyi üçün yalnız bir yazıçı - "qəlb mühəndisi" kimi yox, həm də bir təşkilatçı, ictimai xadim kimi də böyük işlər görmüşdür (məsələn, TÜRKSOY, Türk Dünyası Yazarlar Birliyi təşəbbüsləri);

3) türk birliyinin ideya-mənəvi fundamentini təşkil edəcək əsərlər (məsələn, "Min beş yüz ilin Oğuz şeiri" antologiyası) yaratmışdır.

...Anarın Türk dünyası həmin dünyanın özü qədər zəngin, mükəmməl və möhtəşəmdir...

**Nizami CƏFƏROV**

## SƏNƏT XADİMLƏRİ

Mən "Kommunist" qəzetində çox istedadlı yazıçı Anara qarşı yönəlmiş məqalənin qəti əleyhinəyəm.

**Qara QARAYEV**



*Maqsud İbrahimbəyov, Qara Qarayev, Vasif Adıgözəlov, Mirzə Babayevlə*

"Azərbaycanfilm" studiyasında yaranmış və Mərkəzi televiziya ilə nümayiş etdirilmiş "Üzeyir Hacıbəyov. Uzun ömrün akkordları" filminin ssenari müəllifi və rejissoru Anardır. Film bəstəkarın yaradıcılığının dərin xəlqi köklərini, onun doğma torpağına üzvü bağlılığını əks etdi-



*Rəşid Behbudovla*

rır. Xatirələrin, tarixi sənədlərin, bədii kinoyla uzlaşması bəstəkarın taleyi, Azərbaycan musiqi-səhnə sənətinin inkişaf yolları haqqında düşüncə-film yaratmağa imkan vermişdir.

**Rəşid BEHBUDOV**

Folklora yaradıcı münasibət bəsləyən, ondan dövrün tələblərinə uyğun şəkildə bəhrələnən istedadlı insanlarımızdan biri də Anardır. Əsrlərin sınağından çıxmış "Kitabi-Dədə Qorqud" motivləri əsasında ssenari yaratmaq, sözün həqiqi mənasında, məsuliyyət, yazıçı hünəri istəyirdi.



*Rza Təhmasiblə*

Ssenari müəllifi dastanın boylarını, əlaqədar rəvayətləri, xalq deyimlərini diqqətlə öyrənmiş, onun mətninə yersiz aludəçilik göstərməmişdir. Ancaq çoxplanlı eposu olduğu kimi ekrana köçürmək məqsədi güdməmiş, onun bəzi süjet xətlərindən, qəhrəmanlarından imtina etmiş, əsərin əsas ideyasına sadiq qalaraq daxili çəkişmələri, müharibə dəhşətlərini, bununla əlaqədar faciələri ümumiləşdirmiş, nəciblik, xeyirxahlıq ideallarını ön plana çəkmişdir. Ssenarinin bədii dili - səlisliyi, canlılığı və poetikliyi tamaşaçıların diqqətini cəlb edir ki, bu da filmin emosional təsir qüvvəsini gücləndirir.

"Dədə Qorqud" "Azərbaycanfilm" studiyasının nailiyyətidir. Bu əsər tarixi janrda yaradılmış kino sənətimizin diqqətəlayiq nümunələrindən biri kimi qiymətləndirilə bilər.

**Rza TƏHMASİB**

Mən yüksək şəxsiyyətli, sevimli şairimiz rəhmətlik dostum Rəsul Rzanın oğlu, mənimlə müqayisədə gənc dostum Anarı ona görə sevirəm ki, o, atasından gələn bir çox insani keyfiyyətləri keşməkeşli dövrlərdən keçirərək özündə yaşada bilib, öz zəhməti, öz çalışqanlığı hesabına biliyini, səviyyəsini artıraraq kamil bir insan, çoxsahəli yaradıcılığı olan həssas, duyğulu bir sənətkar və yüksək mədəniyyətli dövlət xadimi olub.

**Tofiq QULİYEV**



*Tofiq Quliyevlə*

Mən Anara hörmət edib, ona görə onu sevirəm ki, o həm istedadlı yazıçıdır, daha geniş mənada sənətkardır, həm də mənim dostum rəhmətlik Rəsul Rzanın oğludur, ona bütün işlərində Allahdan uğurlar diləyirəm.

**Mikayıl ABDULLAYEV**

"Gün keçdi" filminin ssenarisini Anar öz lirik hekayəsi əsasında yazıb. Səmimiyyətlə və həssaslıqla işlənmiş bu hekayə ilə Ümumittifaq oxucuları "Literaturnaya qazeta"nın səhifələrində tanış olmuşlar. Təbiidir ki, oxucuların rəğbəti-



*Həsən Seyidbəylinin qonaqları və ailə üzvləriylə*

ni qazanmış bir hekayə əsasında film yaratmaq ideyası razılıqla qarşılandı. Hekayənin ssenari üçün material verən səhifələri filmin ən yaxşı epizodlarını təşkil edir, bu epizodlarda hekayənin öz ruhundan doğan bir təbiilik, zəriflik və həssaslıq var... Rejissor Arif Babayev ssenarinin ən yaxşı epizodlarını ekrana köçürərkən həssaslıq göstərmişdir.

**Həsən SEYİDBƏYLİ**

Mənim son işlərimdən biri Xalq yazıçısı Anarın portretidir. Daha əvvəllər mən onun atasının, gözəl şairimiz Rəsul Rzanın portretini çəkmişdim.



*Tahir Salahovla*

Anar - bütöv bir dünyadır. Onun şəklini sonsuz maraqla çəkmək olar. Şəkil çəkilərkən öz dünyasına qapanır, duyğulanır.

**Tahir SALAHOV**



*Arif Məlikovla*

Bəllidir ki, poeziyamızla müqayisədə prozamızın yaşı azdır, buna baxmayaraq XX yüzildə nəsrimizdə fərəhli hadisələr olub, bunların içərisində Anarın özünəməxsus yeri var.

**Arif MƏLİKOV**

Müasir həyat haqqında pyes axtarışlarımızda bizi nasir və dramaturq Anarın "Şəhərin yay günləri" əsəri cəlb etdi. Ədəbiyyatımızda gənc nəslin ən maraqlı nümayəndələrindən olan Anarın yaradıcılığı teatr kollektivimizin diqqətini çoxdan çəkmişdi. Ümid edirik ki, bu müəlliflə görüşümüz məhsuldar olacaq və gələcək əməkdaşlığımızın təməli qoyulacaq.

**Tofiq KAZIMOV**



*Tofiq Kazımov və Emin Sabitoğluyla*

Tallin, Moskva, Roma, Paris və dünyanın bir çox böyük şəhərlərində olmuşam və oradan Azərbaycana baxanda həmişə Anarı görmüşəm.

Böyük məmnuniyyətlə bu işə girişdim. Birincisi mənə yaxın olan zəngin Azərbaycan folkloruyla təmasda olacağıma görə. İkincisi, Anarla hər şeydən başqa nadir maarifçilik bacarığına malik olan yazıçıyla əməkdaşlıq etməyi sevirəm. Bax bu səfər də Anar bizim ediblərin çoxdan etməli olduqları işi gördü, Azərbaycan xalqının ulu əcdadları oğuzların qədim abidəsini "Kitabi Dədəm Qorqud"u geniş oxucu kütləsi üçün (həm də yalnız yeniyetmələr üçün deyil) maraqlı bir formada yenidən işlədi. Mən işlədi deyirəm, çünki Anar dastanın bütün əsas süjet xətlərini və hətta epizodlarını əhatə etdi, amma onun povesti orijinal əsərdir, dastandan fərqli olaraq vahid kompozisiya əsasında qurulub, hadisələrin dəqiq inkişafı, aydın ifadə olunmuş ideyası var.

**Toğrul NƏRİMANBƏYOV**



*Toğrul Nərimanbəyovla*

# Anar haqqında

Altmışıncı illər mənim üçün Anarı kəşf etməyimlə əlamətdardır. Mən dərhal onun nəsr üslubunu xoşladım, mövzuların cəsarətli seçiminə heyrətləndim. O illərdə biz kitab oxumaqdan doymazdıq, bizi istedadlı yazıçılar dalğası - İsa Hüseynov, Maqsud və Rüstəm İbrahimbəyovlar... adlar kəhkəşanı... - qoynuna alıb apardı.

"Çevrə" ("Ağ liman" - red.), "Beşmərtəbəli evin altıncı mərtəbəsi" birnəfəsə oxunurdular.

İxtisasca mən kinooperatoram, müstəqil film çəkməyə 1972-ci ildə başlamışam. Yəqin, mən bəxti gətirmiş adamam, çünki Anar, Rüstəm kimi sənətkarlar mənimlə yanaşı yaşayıb-yaradıblar. Sənətim mənə Anarla yaxından ünsiyyətdə olmaq imkanı verdi.

Anara, necə deyərlər, riskə gedib müraciət etdim. Bir yazıçı, bir insan kimi rəğbət bəsləyirdim ona. Təklifimi qəbul edəcəyinə çox da ümidim yox idi, lakin gözlənilmədən bəyəndi. Gələcək işin cürbəcür detallarını, personajların xarakterlərini incələməyə başladıq, lakin düşüncələrimdə Təhminənin əzabları hər şeyi üstələyirdi...

Nəhayət, Anar ssenarini gətirdi. Oturub oxumağa başladım və belə bir finalla rastlaşdım. Əsərin qəhrəmanı Təhminəni sanki ölümündən sonra küçədə gedən görür, ardınca cumur, izləyir, beşinci mərtəbənin "altıncı mərtəbəsinə" qalxmağa çalışır... və bu an Təhminə qeyb olur... Anarı kinoda da müəyyən şərtilik, sirr, müəmma cəlb edirdi... Bu meyl məndən uzaqdır. Və mən öz finalımı təklif etdim. Mən məhəbbət haqqında film çəkmək, qəhrəmanın böyük sevginin qədrini bilmədiyini göstərmək istəyirdim; yalnız sevdiyi qadının ölümündən sonra o, bir acı fikrindən sarsılır: o, sevgilisini itirir, özünü də itirmişdir.



*Rasim Ocaqov, Maqsud və Rüstəm İbrahimbəyovla*

Üstündən xeyli vaxt keçəndən sonra onun ssenarisi üzrə başqa bir filmi - "Otel otağı"nı çəkdim. Bu olduqca dərin əsərdir. Filmin necə alındığını demək mənim işim deyil, amma materialın özü mənə çox yaxın idi. Mənim bütün filimlərimdən bir ideya, bir fikir keçir, vicdanlı, nəcib insanlara bu dünyada yaşamaq çətindir... Anar belə bir situasiyanı parlaqcasına göstərir: əvvəllər qəhrəmanı türkçülükdə ittiham etmiş bir personaj 90-cı illərin əvvəllərində bağırır ki, biz türklərlə qan qardaşı, bir millətik, dilimiz birdir, türkləri bəyənməyən düşmənimizdir...

**Rasim OCAQOV**

Anar həyatda, sənətdə heç kimə bənzəmir, ədəbiyyatımızda onun özünəməxsus yeri və dəst-xətti var. Hər hansı bir əsərini oxuyanda bilirsən ki, bu, Anarın qələmindən çıxıb. Elə özünün çəkdiyi filmlər də adi bədii filmlər deyil. Bunlar həm də görkəmli sənətkarlarımız haqqında monumental tədqiqat əsərləridir.

Mən Anarı bir yazıçı kimi çoxdan tanıyıram. Mən çox rejissorlarla işləmişəm. Amma Anarda başqalarından fərqlənən cəhətlər görmüşəm. Çəkiliş meydançasında çox danışmaqla, obrazı aktyora uzun-uzadı başa salmaqla işi yoxdur. O, baxışları ilə, iki kəlmə ilə sözlə aktyoru inandırır. Mən Anarla fəxr edirəm. Moskvada yaşlı nəsildən olan ədiblərin ona necə hörmət və izzətlə müraciət etdiklərini görəndə ürəyim dağa dönürdü...

**Həsən MƏMMƏDOV**



*Filmin çəkilişində rejissor Arif Babayev, operator Rasim İsmayılov, aktyor Həsən Məmmədovla*

Anar, institutlara qəbul imtahanlarından bəhs edən "Şəhərin yay günləri" adlı iki hissədən ibarət olan dram əsərini 1977-ci ildə yazıb Akademik Dram teatrına təqdim etmişdi.

O zaman teatrın baş rejissoru Tofiq Kazımov haqsız təzyiqlər nəticəsində müəyyən daxili üzüntülər keçirirdi, yaradıcılığındakı təbəddülat özünü aydın şəkildə biruzə verirdi. Anarın "Şəhərin yay günləri" həm yazılış üslubu, mövzusu, psixoloji dərinliyi, konflikti ilə Tofiq Kazımovun yaradıcılıq üslubuna, sənət prinsiplərinə uyğun olduğundan onun ciddi marağına səbəb oldu, ciddi səylə əsər üzərində yaradıcılıq işinə başladı. 1977-ci il dekabr ayının 16-da ilk tamaşasının göstərilməsinə nail oldu. Repertuarda öz yerini möhkəm müəyyənləşdirən və uzun müddət tamaşaçı alqışı altında göstərilən "Şəhərin yay günləri" Azərbaycan hökuməti tərəfindən də yüksək qiymətləndirildi, respublika Dövlət mükafatına layiq görüldü.

1980-ci ildə Tofiq Kazımov dünyasını dəyişdi. Bu vaxt "Şəhərin yay günləri" xeyli vaxt idi ki, göstərilmirdi. Lakin bu tamaşanın göstərilməsinə olan ehtiyac aydın hiss olunurdu. Tamaşanın bərpası, məşqlərin yenidən aparılması Anarla mənim öhdəmə düşdü. Tamaşada cəmi iki obraz dəyişilmişdi. Qiyas Zeynallı rolunu Həsən Turabovun əvəzinə Rafael Dadaşov ifa edirdi. Dilarə rolunu mən - Amaliya Pənahova ifa etmişdim.

"Şəhərin yay günləri" pyesinin 1983-cü ildəki tamaşasından sonra Anar "Təhminə və Zaur" pyesi ilə teatra gəldi.

"Təhminə və Zaur" pyesi müasir insan, gəncliyin pak amalı və saf mənəviyyatı barəsində poetik bir himn idi.

Açığını deyim ki, bəlkə də Azərbaycan teatrında ürəklərə, hisslərə bu qədər güclü təsir göstərən az əsər oynanılmışdı. Neçə vaxt ardı-arası kəsilmədən, mütəmadi göstərilən bu tamaşaya bilet tapmaq mümkün deyildi. Tamaşaçıların əksəriyyəti ona ikinci, üçüncü dəfə baxmaqdan çəkinmirdilər.

Mən Təhminəni bütün varlığıma elə hopdurmuşdum ki, onu necə var idi eləcə görürdüm, hiss edirdim, duyurdum və yaradıcılıq imkanlarımdan istifadə edib onu olduğu kimi - yaxşı və pis cəhətləri ilə birlikdə bütöv bir xarakter kimi səhnədə canlandırmağa səy göstərirdim.

**Amaliya PƏNAHOVA**



*İki Təhminəylə - Amaliya Pənahova və Meral Konradla*

Mən çox sevinirəm ki, Anar kimi adamla bir şəhərdə, bir zamanda yaşayıram. Anar geniş qəlblidi. O büsbütün, başdan ayağa yaradıcı adamdı. Əxlaqı, mənəviyyatı o dərəcədə yüksəkdi ki, adam onun yanında səhv etməyə qorxur. Anar yüksək prinsiplərin, tələblərin adamıdı. Ancaq o özünə daha çox tələbkardı.

Anar maraqlı yazıçıdı, bu günün reallığını bəşəri tələblər çərçivəsində qələmə alır.

**Eldar QULİYEV**
***Xalq artisti***
***"Mədəniyyət" qəzeti, 14-17 mart 1998***

Anarın bizim kinomatoqrafiyada rolu olduqca böyükdür. Onun yaradıcı kimi iştirakı ilə çəkilən filmləri sadəcə olaraq sadalamaq belə çətindir. Hələ demirəm ki, bu, yalnız kəmiyyətinə deyil, həm də geniş bədii diapazonuna, dövrü, xarakterləri, janrları, əhval-ruhiyyələri əhatə etməsinə görə uzun bir siyahıdır... Xoşbəxtəm ki, hələ gənclik illərində, bizim nəsil üçün çox şərəfli olan 60-cı illərdə Anarla işləmək səadəti mənə də nəsib olmuşdur.



*Eldar Quliyev, Oktay Mirqasım, Azərpaşa Nemətovla*

O, öz torpağının, öz xalqının oğludur. O, vətəndaşdır. Elə bir hal xatırlamıram ki, Anar öz qayğıları qeydinə qalaraq dostlarının, ictimaiyyətin, milli ədəbiyyatın, teatrın, kinonun, yetişməkdə olan nəslin, tələbələrin taleyini, bütövlükdə maarifin qayğılarını bir dəqiqə unutmuş olsun. Mən bu tükənməz insanın hansı potensiala malik olduğunu bilirəm və görürəm. İnanıram ki, qarşıda onu bu vaxta kimi yaratdıqlarından da çox kitablar, filmlər, festivallar, sürəkli alqışlar gözləyir.

**Oktay MİRQASIM**

60-cı illərdə Anar Bakı küçələrindən keçəndə hamı tanıyırdı onu. Yeni yazıçı kimi lap təzə-təzə başladığı zaman. Mən də elə o vaxtlardan tanıyıram onu.

O, bir insan kimi, vətəndaş kimi, yazıçı kimi, hər hansı cəmiyyətdə əlamətdar fiqurdu, o, yüksək mənəvi, yaradıcı enerjini əxz edir, birləşdirir. Onun şəxsiyyəti yalnız Bakı, Azərbaycan məkanı ilə məhdudlaşmır.

Anarla mənim ictimai fəaliyyət yollarım 88-ci ildə, Qarabağ alovlananda çarpazlaşdı, qovuşdu. Peterburqa, mədəniyyət günlərini ilk dəfə onunla birgə səfərə yollanmağımız yadımdadır: qayıdan kimi də bizi birbaşa Mərkəzi Komitəyə apardılar, - Qarabağ hadisələri başlanmışdı. Qara günlər gəlirdi üstümüzə. Amma Anar Anar olaraq qalırdı.

"Otel otağı" bizim nələr çəkdiyimizdən həssas oxucuya çox mətləbləri anladar. Ayıq-sayıq vətəndaş təəssübkeşliyinə görə Anar ölkədəki vəziyyət müqabilində iqtidarın hərəkətlərinə qarşı biganə qala bilməzdi. Əleyhinə çıxış etdiyimiz hakim ideologiya, məsələn, mənə tamamilə yad idi. Paradoks ondadır ki, biz indi onun müsbət cəhətlərini də görürük.

O, bir yazıçı kimi illər ötdükcə daha dərin, daha miqyaslı qatlara varır. Təsadüfi şeylər yazmır. "Otel otağı" - taleyinin davamıdır. "Beşmərtəbəli evin altıncı mərtəbəsi" - sərlövhə özü də sənətkar tapıntısından xəbər verir. Bu obrazlı başlıq özü ilə heyrətamiz assosiasiyalar silsiləsini çəkib gətirir.

**Fərhad XƏLİLOV**



*Fərhad Xəlilovla*

# kim nə demiş...



*Fərhad Bədəlbəyli, Nazim İbrahimovla Parisdə*

Anar yaşca məndən böyük idi və mən uşaqlıqda ona ehtiramla baxırdım. Dostluğumuz isə 60-cı illər, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünə təsadüf edir, - o zaman Maqsud, Rüstəm, Əkrəm çap olunmağa başladılar. Arif Məlikovun premyeraları səhnədən səsləndi, Qarayevin Üçüncü simfoniyası meydana çıxdı. Maraqlı kinofilmlərimiz yarandı. Bu, sonralar "altmışıncılar" adlanan nəslin pərvazlanması idi.

Anar praktiki olaraq yaradıb bəslədiyi "Qobustan" dərgisi o dövrün mədəni məkanında tamamilə yeni söz oldu.

İndinin özündə də müxtəlif yaşlı adamlar Anarın yanına məsləhət-məşvərət üçün gəlirlər. Amma ən dəhşətli səhnələri 1989-cu ildə gördüm. İlk qaçqınlar axını... axı onlar hökumət idarələrinin qapısına üz tutmamışdılar... Var-yoxunu itirmiş, əzilmiş, xəstəhal, əli uşaqlı zavallılar... Və onlar birbaşa Yazıçılar Birliyinə üz tutur, pənah gətirirdilər, çünki yaşadıqları ölkənin iqtidarından əlini üzmüşdülər, haqq-ədalət gözləmirdilər. Yerli hakimiyyət də onların başının altına yastıq qoyub aldadırdı. Onlar Anarın yanına gedir, Anar da saatlarla onları qəbul edirdi, hər gün on, on beş, iyirmi biçarəni... Birlikdə bacardıqlarını əsirgəmirdilər, əncam axtarırdılar, baş sındırırdılar, pul yığırdılar, ayın-oyun toplayırdılar. Onda mən başqa Anarı gördüm - "əgər hökumət onlara yardım göstərə bilmir, ya istəmirsə, gəlin biz, yazıçılar əlimizdən gələni edək, darda qoymayaq insanları!" yana-yana deyən Anarı. Sözdən, təskinlik, ürək-dirək verməkdən başqa o, praktiki işləri təşkil etməyə çalışır, kiməsə məskunlaşmaqda köməklik göstərir, kiməsə işə düzəlməkdə... Mənim heç ağlıma gəlməzdi ki, o, belə qətiyyətli inzibatçı olsun. Mən vətəndaş Anarı, hətta o qara günlərdə də nifrəti, kini bütün xalqa şamil etməkdən çəkindirən, bu bəlanı törədənlərin bir faşistləşmiş mərdimazarlar güruhu olduğunu vurğulayan Anarı gördüm... Hətta o ağır şəraitdə də başıbəlalı, olmazın zülmə məruz qalmış didərginləri bir təhər toxdatmağa çalışır, başılovlu, dağıdıcı nifrətə deyil, anlaşmağa çağırır, səsləyirdi. Açığını deyim ki, mən bunu bacarmazdım. Bunun üçün böyük vətəndaş mərdanəliyi gərəkdir. Bu bədbəxt insanlar acı-ağrılardan, çəkdikləri zülümlərdən, itkilərin dərdindən qana-qan deyir, qisasçılıq hissindən alışıb yanırdılar. O isə bu zavallıların aqressiv kütləyə çevrilməsinin qarşısını almağa can atır, başa salır, anladırdı... Hər bir yaralı insanın qəlbində insaniyyət arayır, mərhəmətə arxalanırdı. Kaş o vaxtlar dövlətin başında belə bir şəxsiyyət duraydı...

Bir insan kimi Anar haqqında onun ən çox sevdiyim "Dantenin yubileyi" əsəri çox şeyləri açıqlaya bilər. Mən burada Çexov xəttini duyuram: balaca, sadə bir insana qarşı dərin kədərlə aşılanmış sonsuz canıyananlıq, məhəbbət.

Ümumiyyətlə o başqa təbiətli, başqa auralı insandır. Azərbaycanlı olaraq Litva şairəsi, alman yazıçısı ya moskvalı heykəltəraşla yanaşı duranda təbii görünür... Öz yaradıcılıq kainatında o, cahan adamıdır, bütün böyük sənətkarlar kimi - harada doğulduğundan asılı olmayaraq... Bu da onun mübarək cəhətlərindən biridir.

**Fərhad BƏDƏLBƏYLİ**



*Fərhad Bədəlbəyliylə*

Yəqin biz xoşbəxt insanlarıq ki, Anarla eyni zamanda yaşayırıq, onunla dostluq edirik, görüşürük, səfərlərə çıxırıq, dost məclislərində bir-birimiz haqqında tostlar deyirik. Mən mədəniyyət naziri olan zaman Yazıçılar Birliyinin sədri Anarla bir çox vacib və önəmli ortaq tədbirlər keçirmişik. Anar ideyalar generatorudur, onun bir çox təklif və təşəbbüsləri həyata keçirilib və çox əhəmiyyətli olub. Hələ sovet dövründə o Dədə Qorqud haqqında ssenari yazıb. Müstəqillik illərində isə Anarın irəli sürdüyü və unudulmaz Prezident Heydər Əliyevin dəstəklədiyi ideyaya əsasən "Dədə Qorqud"un yubileyi dünya miqyasında bayram edildi və yenə də Anarın təşəbbüsüylə "Dədə Qorqud" ensiklopediyası yarandı ki, Anar onun Redaksiya Şurasının sədridir.

**Polad BÜLBÜLOĞLU**



*Polad Bülbüloğluyla*



*Rasim Balayev, Polad Bülbüloğlu, Tofiq İsmayılov, Şenol Demirözlə*

Anar mənim üçün təkcə dost deyil, təkcə yazıçı, dramaturq, ssenarilər müəllifi deyil, təkcə milləti qaranlıqlardan aydınlığa aparan ziyalı deyil. Mən Anara borcluyam və minnətdaram. Anarı yaşadığı zaman formalaşdırmışdı, məni Anarın düşüncələri formalaşdırdı. Hardasa Azərbaycan ədəbiyyatı məndən ötrü Anardan başlayır... Nə yaxşı ki, mənim dostum Anar var.



*Ramiz Həsənoğluyla*

**Ramiz HƏSƏNOĞLU**

Anar ən məşhur və kübar bir ailədə doğulub, boya başa çatıb. Anar valideynlərindən gələn ən yaxşı keyfiyyətlərə malikdir - yüksək intellektə, nəcabətə, dostluqda sədaqətə, gözəlliyə heyranlığında, vətənpərvərliyində, əsas da ədəbi istedadında.



*Fidan Qasımova, Zöhrə Adıgözəlovla İstanbulda*

Anarla bir yerdə dəfələrlə müxtəlif yaradıcılıq nümayəndələriylə və rəsmi heyətlərin tərkibində xarici səfərlərdə olmuşuq. O cümlədən, Ulu Öndər Heydər Əliyevin xarici səfərlərində iştirak etmişik. Hansı ölkəyə olur olsun bizə bələdçi lazım deyildi. Anar gəldiyimiz ölkə haqqında hər hansı bələdçidən daha çox məlumatlara malik idi və bildiklərini bizimlə bölüşürdü. O sözün əsl mənasında filosofdur. Onunla hər hansı bir mövzuda maraqlı söhbət etmək olar. Musiqiçilərlə danışanda o dərin musiqi bilicisidir, rəssamların, heykəltəraşların içində onların sənət xüsusiyyətlərinə yaxşı bələd olan adamdır. Bir sözlə iri miqyaslı şəxsiyyətdir. Bizim qiymətləndirdiyimiz, sevdiyimiz çoxsaylı dostlar arasında Anarın xüsusi yeri var. Anar - bizim müasirimiz, müdrik insan və bütün dünyada tanınan yazıçıdır.

**Fidan QASIMOVA**

Anarın əsərlərini çox asanlıqla oxuya bilirsən. Dili asandır. Bir də rejissorluğu ilə seçilir. Anar həm də rejissorluğu qurtarıb və çox güclü rejissorluq qabiliyyəti vardır. Rejissor kimi bir neçə film çəkib. Onun yazdığı ssenariləri də çox güclüdür. Mən Anarın filmlərində - "Dədə Qorqu"da, "Otel otağında", "Cavid ömrü"ndə, "Sübhün səfiri"ndə çəkilmişəm. Hər dəfə də Anar müəllim özü çəkiliş meydançasına gəlir, bizlə səmimi söhbətlər edirdi, məsləhətlər verirdi. Biz ona həmişə maraqla quraq asırdıq və onun verdiyi tapşırıqları edirdik. Anar həm də şəxsiyyət kimi gözəl şəxsiyyətdir. Çox əxlaqlı, tərbiyəli bir adamdır. Bu gün Anar Azərbaycan ədədiyyatında, Azərbaycan incəsənətində bir imicdir, bir möhürdür. Əsl ziyalıdır.

**Rasim BALAYEV**

İndi də portretin sonuncu çizgisi -Eminin (bəstəkar Emin Sabitoğlu) yazıçı Anarla dostluğu haqqında. Bu dostluq onların atalarının - Sabit Rəhmanla Rəsul Rzanın yaxınlığından, dostluğundan bəhrələnmişdir. Mən Eminlə Anarın dostluğunda böyük və dərin məna görürəm. Axı Anar yük-



*Firəngiz Əlizadəylə*

sək dərəcədə mədəni insandır, gözəl nasirdir, ədəbiyyatşünasdır, erudittir, onunla dostluq etmək hamı üçün asan deyil. Belə bir dostluq adamı ucaldır və nəcibləşdirir, kamilləşdirir və qarşıya tələblər qoyur. Bu iki adamın məhz belə tələbkar dostluq telləri ilə bir-birinə bağlanması mənim nəzərimdə onların yüksək bəşəri keyfiyyətləri üçün ən yaxşı meyardır.

**Firəngiz ƏLİZADƏ**

Anarın çəkdiyi filmlərin bir özəlliyi var: süjetin mövzusundan asılı olmayaraq o, hər filmində çağdaş durumumuzdan və deməк ki çağdaş insanlarımızdan danışır. Məhz buna görədir ki, Anarın filmlərinə hətta kütləvi səhnələrdə mədəniyyətimizin ünlü simalarını görürük, tanıyırıq. Zaman keçdikcə məhz o şəxslərin aurası baxdığımız filmə yeni bir məna bexş edir, söylənilən öykü isə başqa anlam qazanır.

**Vaqif İBRAHİMOĞLU**



*Vaqif İbrahimoğluyla*

Əzizim Anar!

Bu kiçik təbrik məktubunu yazarkən, özümdən asılı olmayaraq, fikir məni uzaq illərə apardı: o zamanlara ki, sən portfelini çiynindən sallayıb, iş-gücə tələsirdin, gənc bir elmi işçi olan Zemfira da Vaqif-30-un tinindəki troyleybus dayanacağında troyleybusa minib, Akademiyaya gedirdi; o zamanlara ki, hələ Günel anadan olmamışdı, Tural da hələ məktəbə getmirdi; o vaxtlara ki, mən də cavan bir aspirant, sonra da Nizami İnstitunun elmi işçisi idim.

Gənclik ehtirası və bəzən də maksimalizmi ilə dünyanın işləri barədə, ədəbiyyatımızın keçmişi, çağdaş dövrü və gələcəyi barədə fikirlərimiz, Quruluşla, Sistemlə bağlı ancaq üç-dörd nəfər bir-birimizə deyə biləcəyimiz söhbətlərimiz və ən başlıcası da, bədii (!) mübarizəmiz, şəxsi-qərəzliklə yox, böhtançılıqla, dedi-qoduyla, qeybətlə yox, ortaya çıxarmaya çalışdığımız (və çıxadığımız!) əsərlər vasitəsiylə mücadiləmiz, təzə yazdıqlarımızı bir-birimizə verib, oxumağımız, sonra da ya ikilikdə, ya da yığışıb (Yusif Səmədoğlu, Araz Dadaşzadə, Rəhman Bədəlov...) fikir söyləməyimiz, sizin bir tərəfi yarımzirzəmi olan mənzilinizdəki hərdən az qala səhərəcən çəkən xudmani məclislərimiz, mənim dördüncü mərtəbədəki birotaqlı mənzilimin pəncərəsindən əlimizi yelləyə-yelləyə üzbəüzdə yaşayan Əkrəm Əylislini salamlamağımız, hərdən də gecələr Dənizkənarı bulvardakı kafenin gözətçisi İbad dayının hüzuruna yollanmağımız və bu artıq, balacaboy, çox da koloritli "kölgə biznesmeninin" bizim üçün açdığı zəif (həm də unudulmaz!) süfrənin arxasında oturmağımız və s., və i.a. - bütün bunlar fikrimdə dolaşmağa başladı.

O zaman 85 rəqəmi bizm üçün olsa, olsa yəqin ki, bədii fantastika rəqəmi ola bilərdi, ancaq reaktiv sürətlə ötən vaxt, zaman bu gün o rəqəmi fantastika aləmindən çıxararaq, reallaşdırıb və sən bu real rəqəmi həm xalqımızın sevimli yazıçısı, mütəfəkkiri, həm görkəmli və nüfuzlu ictimai xadim, həm də sadə və müdrik bir insan, böyük və gözəl bir ailə başçısı kimi alnı açıq, üzüağ qarşılayırsan.

Mən sənin 60 illik yubileyinlə bağlı birinci esseni ("Qocalığa hələ çox qalıb"-1), 15 ildən sonra sənin 75 illik yubileyinlə bağlı ikinci esseni ("Qocalığa hələ çox qalıb"-2) yazmışam, ancaq atalar üçdən deyib, ona görə də mən bu dəfə bu kiçik təbrik məktubunu yazıb, artıq ənənəyə dönən ardıcıllığı pozmayaraq, üçüncü esseni ("Qocalığa hələ çox qalıb"-3) yenə 15 ildən sonra (yəni 75-dən 90-acan) sənin 90 illik yubileyini səninlə birlikdə bayram edəcəyimiz günlərdə yazacağam.

Fantastik rəqəmdən real rəqəmə çevrilmiş 85-in bir daha mübarək olsun!

Bu real rəqəmlərin hələ xeyli artması arzuları və atacağı da inamı ilə

**E L Ç İ N**

*11 mart 2023, Bakı*



*1969-cu il. Anar, Elçin, Araz Dadaşzadə Qobustanda*